**ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI**

**İXTİSAS MUSİQİ MƏKTƏB-STUDİYASI**

# AZƏRBAYCAN MUSİQİ ƏDƏBİYYATI

**2 SİNİF (5 illik təhsil)**
**4 SİNİF (7 illik təhsil)**

**Uşaq musiqi və incəsənət məktəb şagirdləri üçün**

# PROQRAM-KONSPEKT

**ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI**

**İXTİSAS MUSİQİ MƏKTƏB-STUDİYASI**

---

# AZƏRBAYCAN MUSİQİ ƏDƏBİYYATI

**2 SİNİF (5 illik təhsil)**
**4 SİNİF (7 illik təhsil)**

**Uşaq musiqi və incəsənət məktəb şagirdləri üçün**

# PROQRAM-KONSPEKT

*Üzeyir Hacıbəyli adına*
*Bakı Musiqi Akademiyasının*
*Elmi Şurasının 24 aprel 2019-cu il tarixli*
*7 №-li protokolunun əmri ilə*
*təsdiq edilmiş və nəşrə tövsiyə olunmuşdur*

**Bakı – 2025**

*Konspekt Uşaq musiqi və incəsənət məktəb şagirdləri üçün*
*AR Mədəniyyət Nazirliyinin proqramı əsasında*
*Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının*
*elmi-eksperimental laboratoriyası –*
*İxtisas musiqi məktəb-studiyasında hazırlanıb*

**Layihənin müəllifi və rəhbəri:**
Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi,
sənətşünaslıq üzrə elmlər doktoru, professor
**Tərlan SEYİDOV**

**Tərtibçi:**
Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının
İxtisas musiqi məktəb-studiyasının müəllimi
**Rəna MƏMMƏDOVA**

**Tərcümə:**
BMA-nın İxtisas musiqi məktəb-studiyasının müəllimi
**Tutu HÜSEYNOVA**

**Məsul redaktorlar:**
BMA-nın məktəb-studiyasının
elmi-metodiki işlər üzrə direktor müavini,
sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Aytən BAXŞİYEVA**

BMA-nın məktəb-studiyasının böyük elmi işçisi
**Şəfəq HACIYEVA**

BMA-nın məktəb-studiyasının elmi işçisi
**Günay MƏHYƏDDİNLİ**

**Rəyçi və məsləhətçilər:**
"Musiqi tarixi" kafedrasının müdiri,
Azərbaycan Respublikasının Əməkdar müəllimi,
sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
**Ülviyyə İMANOVA**

"Musiqi nəzəriyyəsi" kafedrasının müdiri,
sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
**Könül NƏSİROVA**

# P R O Q R A M

## Birinci yarımil



| | |
|---|---|
| *1-ci dərs.* **"Musiqi ədəbiyyatı" fənninin tədrisinin məqsəd və vəzifələri haqqında söhbət** ........ | **5** |
| *2-ci dərs.* **Musiqi bizim həyatımızda** ........ | **7** |
| *3-cü dərs.* **Musiqinin ifadə vasitələri** ........ | **9** |
| *4-cü dərs.* **Orkestr haqqında söhbət. Azərbaycan xalq çalğı alətləri orkestri** ........ | **12** |
| *5-ci dərs.* **Musiqi tembrləri** ........ | **15** |
| *6-cı dərs.* **Azərbaycanın tanınmış ifaçıları** ........ | **16** |
| *7-ci dərs.* **Azərbaycan vokal məktəbinin yaranması və inkişafı** ........ | **19** |
| *8-ci dərs.* **Musiqi janrları** ........ | **21** |
| *9-cu dərs.* **Mahnı janrı** ........ | **23** |
| *10-cu dərs.* **Azərbaycan xalq mahnıları, onların bəstəkarlar tərəfindən işlənməsi və istifadə olunması** ........ | **27** |
| *11-ci dərs.* **Mahnı ifaçılıq sənəti** ........ | **31** |
| *12-ci dərs.* **XX əsrin 20 – 40-cı illərində mahnı janrı** ........ | **33** |
| *13-cü dərs.* **XX əsrin 50 – 90-cı illərində mahnı janrı** ........ | **35** |
| *14-cü dərs.* **Müasir dövrün Azərbaycan bəstəkarlarının mahnıları** ........ | **40** |
| *15-ci dərs.* **Rəqs janrı. Azərbaycan xalq rəqslərinin bəstəkar yaradıcılığında istifadə olunması** ........ | **42** |
| *16-cı dərs.* **Rəqs sənətinin tanınmış ifaçıları haqqında söhbət** ........ | **47** |

**Второе полугодие**


| | |
|---|---|
| *1-ci dərs.* **Proqramlı musiqi** ........................................................................................ | **49** |
| *2-ci dərs.* **Proqramlı musiqi (davamı)** ......................................................................... | **51** |
| *3-cü dərs.* **Proqramlı musiqi (davamı)** ......................................................................... | **57** |
| *4-cü dərs.* **Azərbaycanda musiqili teatrın yaranması** ........................................................ | **61** |
| *5 – 6-cı dərslər.* **Azərbaycanda balet janrının yaranma tarixi** ........................................ | **63** |
| *7-ci dərs.* **Əşrəf Abbasov. "Qaraca qız" baleti** ................................................................ | **68** |
| *8 – 9-cu dərslər.* **Opera və onun elementləri** ................................................ | **71** |
| *10-cu dərs.* **Soltan Hacıbəyov. "İsgəndər və çoban" operası** ............................................ | **74** |
| *11-ci dərs.* **Nazim Əliverdibəyov. "Cırtdan" operası** ...................................................... | **77** |
| *12-ci dərs.* **Musiqili komediya və operetta** .................................................... | **80** |
| *13-cü dərs.* **Azərbaycan kino musiqisi XX əsrin 50-ci illərində** ...................................... | **82** |
| *14-cü dərs.* **Azərbaycan kino musiqisi XX əsrin 60-cı illərində** ..................................... | **87** |
| *15-ci dərs.* **Azərbaycan kino musiqisi XX əsrin 70-ci illərindən müasir dövrə qədər** ............................................................................................ | **90** |

## BİRİNCİ YARIMİL

*1-ci dərs.* **“Musiqi ədəbiyyatı” fənninin tədrisinin məqsəd və vəzifələri haqqında söhbət.**

“Musiqi ədəbiyyatı” fənninin tələbi şəxsiyyətin bədii və estetik inkişafına yönəlmişdir. Musiqi ədəbiyyatı dərslərində şagirdlər musiqi təfəkkürünü inkişaf etdirir, musiqi əsərlərini qavrayır və təhlil edir, musiqi dili və ifadə vasitələri haqqında biliklərə yiyələnirlər. Musiqi ədəbiyyatı dərsləri musiqi sənəti sahəsində dünya görüşünün formalaşmasına və genişlənməsinə töhfə verir, musiqi zövqünü inkişaf etdirir.

“Musiqi ədəbiyyatı” fənninin məqsədləri:

1. Klassik musiqiyə və ümumiyyətlə musiqiyə maraq və sevginin formalaşdırılması.
2. Görkəmli yerli və xarici bəstəkarların əsərləri ilə tanışlıq, dünya musiqi mədəniyyətinin ən yaxşı nümunələri haqqında biliklərin əldə edilməsi.
3. Parlaq musiqi materialını dinləmə prosesində emosional reaksiyanın tərbiyəsi.
4. Musiqi janrları, əsas üslub və cərəyanlar haqqında biliklərin əldə edilməsi istiqamətləri.
5. Musiqi alətlərində ifa zamanı əldə edilmiş nəzəri biliklərdən istifadə etmək bacarığı.

Musiqi ədəbiyyatının müxtəlif nümunələrini nəzərə alaraq, ilk növbədə, qeyd etmək lazımdır ki, Azərbaycan musiqisi görkəmli bəstəkarlar və onların yaradıcılığı ilə təmsil olunur. Eyni zamanda, Azərbaycan musiqi incəsənətində Azərbaycan xalq yaradıcılığı da mühüm yer tutur.

Azərbaycan Respublikasının Dövlət himni (musiqisi Üzeyir Hacıbəylinin, sözləri Əhməd Cavadın) ölkənin tarixinə qürur və hörmət hissi doğurur, xalqımızın adət-ənənələrini, mübarizəsini əks etdirir.

***Ü.Hacıbəyli. Azərbaycan Respublikasının Dövlət Himni:***
**https://youtu.be/QUV0mQ50L9k**




Üzeyir Hacıbəylinin “Koroğlu” operasına Uvertüra (giriş) da qəhrəmani, mübariz xarakteri ilə fərqlənir.

***Ü.Hacıbəyli. "Koroğlu" operasından Uvertura:***

**https://www.youtube.com/watch?v=ozHmoAlQ9ws**




Xalq musiqi nümunələrindən biri, orijinal, gözəl lirik melodiyası ilə seçilən "Uzundərə" xalq rəqsi geniş yayılmışdır. Bu rəqs Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" ("Məşədi İbad") musiqili komediyasında istifadə olunub.

***"Uzundərə" Azərbaycan xalq rəqsi:***

**https://www.youtube.com/watch?v=b-oco2GTY5c**




Zərbi-muğamlar (ritmik muğamlar) Azərbaycan şifahi musiqisində tanınmış janrlardandır. Zərbi zərb aləti deməkdir, Zərbi-muğam isə oxumağı müşayiət edən instrumental ansamblda zərb alətlərinin böyük rolu olan instrumental-vokal muğamdır.

"Qarabağ şikəstəsi" zərbi-muğamında lirik əhval-ruhiyyə üstünlük təşkil etsə də, zaman keçdikcə daha alovlu, çağırışlı xarakter almışdır. "Qarabağ şikəstəsi" ritmik muğamlardan biridir və Segah məqamına əsaslanır, Üzeyir Hacıbəylinin "Əsli və Kərəm", Müslüm Maqomayevin "Şah İsmayıl", Reynqold Qliyerin "Şahsənəm" operasında istifadə edilmişdir.

***Zərbi-muğam "Qarabağ şikəstəsi":***

**https://www.youtube.com/watch?v=Ke_X0k8xFZ0**



"Sarı gəlin" Azərbaycan xalq mahnısı ("Sarı paltarlı gəlin") sevimli qızı, gəlini tərənnüm edir. Əsər lirik ruhlu xarakteri ilə seçilir. (Mahnını Asəf Zeynallı nota köçürmüşdür.)

***Azərbaycan xalq mahnısı "Sarı gəlin":***

**https://www.youtube.com/watch?v=T-PjFB3YiuA**




***Suallar:***

1. Musiqi ədəbiyyatı üzrə dərslər nəyə kömək edir?
2. "Musiqi ədəbiyyatı" fənninin hansı vəzifələri vardır?
3. Zərbi-muğam nədir? "Qarabağ şikəstəsi" zərbi-muğamı hansı bəstəkarların əsərlərində istifadə edilmişdir?

*2-ci dərs.* **Musiqi bizim həyatımızda.**

Musiqi həyatımızda mühüm rol oynayır. O, insanın zəngin daxili aləmini, onu əhatə edən dünyanı əks etdirir. Bildiyimiz kimi, hətta qədim zamanlarda insanların əmək fəaliyyəti müəyyən rəqs və mahnılarla müşayiət olunurdu. Bunu ilk növbədə Qobustanın qayaüstü rəsmləri sübut edir. Belə ki, qayalarda dairəvi şəkildə təsvir edilən rəqs insanları ova hazırlayırdı. Bu rəsm həm də Azərbaycan xalq rəqsi "Yallı"ya bənzəyir.

Azərbaycan xalq musiqisi zəngin obrazlı, müxtəlif mahnı və rəqslərlə təmsil olunur. Bu musiqi janrları həyatımızın ayrılmaz hissəsidir.

Musiqi müxtəlif hisslər və emosiyalar doğura bilər. Hələ danışmağı öyrənməmiş körpə uşaq da musiqini çox həssaslıqla qəbul edir. Bir melodiya onu ağlada bilər, başqa bir melodiya onu yuxuya apara bilər, üçüncüsü isə körpənin əhvalını yüksəldə bilər.

Xalq mahnılarından biri də "Çal, oyna"dır. Mahnının musiqi obrazı 2 təzadlı hissədən ibarətdir. Birinci hissə rəvan, ruhlu səslənir, ikinci hissə sürətli, enerjili, oynaqdır.

***Azərbaycan xalq mahnısı "Çal, oyna***

**https://www.youtube.com/watch?v=z5g-yJVrJws**

**Birinci hissə**



**İkinci hissə**




Üzeyir Hacıbəylinin "Koroğlu" operasından "Cəngi" rəqsi qəhrəmanlığa çağırış kimi yüksək əhval-ruhiyyə ilə səslənir. Azərbaycan xalq nəfəs aləti zurna burada solo ifa edir.

***Ü.Hacıbəyli. "Cəngi" rəqsi:***

**https://www.youtube.com/watch?v=H1zDscaC3B8**




Müslüm Maqomayevin "Radio marşı" da eyni əhval-ruhiyyədə səslənir. Bu əsər "Marş RV-8" adlanır. RV-8 Azərbaycan musiqisinin səsləndiyi radio dalğası idi. Marşın musiqisi enerjili, şən xarakterdədir.

***M.Maqomayev. "Radio marşı":***

**https://www.youtube.com/watch?v=ETwGTmIu8yg**



Tofiq Quliyevin "Bəxtiyar" kinofilmindən "Dostluq nəğməsi" səmimi, parlaq insani hisslər oyadır, eyni zamanda bu mahnı qətiyyətli və israrlı səslənir.

***T.Quliyev. "Bəxtiyar" kinofilmindən "Dostluq nəğməsi":***
**https://www.youtube.com/watch?v=AQHO5yYsoQE**




Tar və orkestr üçün konsert janrını ilk dəfə bəstəkar Hacı Xanməmmədov (tar – Azərbaycan xalq simli alətidir) yaratmışdır. Bəstəkar özünün 2 saylı konsertini Xalq artisti Hacı Məmmədova ithaf etmişdir. Bu konsertin hüzn, kədər dolu ikinci hissəsi Bayatı-Şiraz məqamına əsaslanır.

***H.Xanməmmədov. Tar və orkestr üçün konsertin II hissəsi – Grave:***
**https://www.youtube.com/watch?v=wsxJwYRovXs**




***Suallar:***

1. Musiqi hansı hissləri oyadır?
2. M.Maqomayevin Radio marşı nəyə həsr olunub və onun xarakteri necədir?
3. Tar və orkestr üçün konsert janrını ilk dəfə hansı bəstəkar yaratmışdır?
4. "Bəxtiyar" filminin musiqisini kim yazıb?

*3-cü dərs.* **Musiqinin ifadə vasitələri.**

Hər bir sənətin özünəməxsus dili, öz ifadə vasitələri var. Məsələn, rəssamlıqda bu fırça və boyadır. Onlardan məharətlə istifadə edən rəssam şəkil yaradır. Şeir yazan şair bizimlə söz dilində danışır, poetik nitqdən istifadə edir. Poetik söz poeziyanın ifadə vasitəsidir. Rəqs sənətinin əsasını rəqs, dramatik tamaşalar, aktyorluq təşkil edir.

Musiqi sənət növü kimi özünəməxsus ifadə vasitələrinə malikdir: registr, melodiya, ritm, temp, lad, məqam, harmoniya, tembr, dinamik çalarlar və s.

Melodiya hər hansı bir musiqi əsərinin, onun düşüncəsinin, ruhunun əsasını təşkil edir. Melodiya fərqli – axıcı və kəskin, şən və kədərli ola bilər.

Azərbaycan xalq mahnısı “Laçın”ın[1] melodiyası öz ifadəliliyi və ahəngdarlığı ilə seçilir. Bu xalq mahnısından bəstəkarlar öz əsərlərində – Süleyman Ələsgərov “Bayatı-Şiraz” simfonik muğamında, Nazim Əliverdibəyov “Laçın” fortepiano əsərində istifadə etmişlər. “Laçın” mahnısı sevgi və ayrılıqdan bəhs edir.

**“Laçın” Azərbaycan xalq mahnısı:**

**https://www.youtube.com/watch?v=fZmalOZ2pfg**




**Harmoniya** (yunan dilindən tərcümədə “ahəng”, “uyğunluq” deməkdir) müxtəlif səs birləşmələrinin (və ya akkordların) ardıcıllığıdır. Harmonik müxtəlifliyin parlaq nümunələrindən biri Arif Məlikovun “İki qəlbin dastanı” (1982) baletidir. Ədəbi əsası özbək yazıçısı Şərəf Rəşidovun “İki qəlbin kitabı” poeması təşkil edir. Şair gənc müğənni Modan və gözəl rəqqasə Komdenin məhəbbətini əks etdirən hind məhəbbət əfsanəsini özünəməxsus tərzdə işləyib. Bu hekayə faciəvi məzmununa baxmayaraq, sevginin əbədi qələbəsini təsdiqləyir.

***A.Məlikov. “İki qəlbin dastanı” baleti. «Komdenin arzuları»:***

**https://www.youtube.com/watch?v=6vosQ82PTzI**



İstənilən musiqidə melodiyadan əlavə **ritm** də çox önəmlidir. Yunan dilindən tərcümədə ritm qısa və uzun səslərin növbələşməsi deməkdir. Hər rəqsin də öz ritmi və tempi var.

Ləzginka bütün Qafqazda yayılmış ləzgi xalqının rəqsidir. Bu rəqsin musiqi ritmi 6/8 ölçüdədir.

[1] “Laçın” mahnısının adı müxtəlif mənalarda istifadə olunur (məkan adı, qız və ya quşun gözəlliyinin tərənnümü, kişi cəsarəti).

Azər Rzayevin “Qaytağı” (“Ləzginka”) əsəri simfonik orkestr üçün yazılmış altı musiqi lövhəsindən biri olaraq, enerjili xarakteri ilə seçilir. Sürətli tempdə ifa olunur.

**A.Rzayev. “Qaytağı”:**
**https://www.youtube.com/watch?v=qIQ0wlZ6q84**




Konkret musiqi obrazı yaratmaq üçün yuxarıda göstərilən musiqi ifadə vasitələri ilə yanaşı registr, temp və dinamik çalarlar böyük əhəmiyyət kəsb edir.

**Registr** səsin və musiqi alətinin müəyyən yüksəkliyidir, yüksək (yüngül, şəffaf səslənmə), orta (insan səsinə yaxın) və aşağı (ciddi, tutqun, qorxulu səslənmə) registrlər var.

**Temp** – musiqi əsərlərinin ifası sürətinə deyilir. Templər 3 növ olur: yavaş; mülayim; tez templər.

**Dinamik işarələr** səslənmənin yüksəklik dərəcəsidir**.**

Oqtay Zülfüqarov Azərbaycanda uşaq bəstəkarı kimi məşhurdur. O, uşaqlar üçün çoxlu maraqlı fortepiano pyesləri və mahnılar yaratmışdır.

“Uşaq albomu” məcmuəsindən “Yuxu” pyesi registr və ritmik xüsusiyyətləri baxımından yatan uşaq obrazını yaradır. Sol əlin asta tempdə rəvan ritmik şəkli sakit yuxunu təsvir etsə də, eyni zamanda, sağ əlin dissonans səslənişi sanki bu yuxunun sehrli, möcüzəli əhval-ruhiyyəsindən xəbər vermiş olur.

***O.Zülfüqarov. “Uşaq albomu” məcmuəsindən “Yuxu”:***
**https://www.youtube.com/watch?v=GmNUNRM99_g**




Həmin məcmuədən olan “Külək” pyesi sürətli tempi və dinamik çalarları (*mp*-dan *f*-yə qədər) baxımından sanki güclənən, şiddətli küləyi təsvir edir.

*O.Zülfüqarov. “Uşaq albomu” məcmuəsindən “Külək”:*




***Sual və tapşırıqlar:***

1. Tanıdığınız musiqi ifadə vasitələrini sadalayın.
2. Melodiya nədir?
3. Harmoniya nədir?
4. A.Rzayevin “Qaytağı” rəqsi hansı ritmik xüsusiyyətə və xarakterə malikdir?
5. Registrlərin hansı növləri var?

*4-cü dərs.* **Orkestr haqqında söhbət. Azərbaycan xalq çalğı alətləri orkestri.**

**Orkestr** – müxtəlif alətlərdə musiqi əsərlərini birgə ifa edən musiqiçilər kollektividir.

Qədim Yunanstanda teatr tamaşaları zamanı, səhnədə xorun yerləşdiyi dairəvi məkan orkestr adlanırdı. Orkestrlər tərkibinə görə müxtəlifdir: simfonik, nəfəs, kamera, estrada, hərbi, caz və s.

**Dirijor** (fransız sözündəndir, idarə etmək deməkdir) – ifaçı musiqiçi, orkestrin, xorun, opera truppasının rəhbəri. Dirijorun yeri adətən səhnənin mərkəzində orkestrin qarşısında olur.

Səid Rüstəmov adına Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri (ilk notla ifa edən Azərbaycan xalq çalğı alətləri orkestri) 1931-ci ildə Azərbaycan professional musiqisinin banisi Üzeyir Hacıbəylinin təşəbbüsü ilə yaradılmışdır. Orkestrin dirijoru Üzeyir Hacıbəylinin özü, dirijor köməkçisi və konsertmeysteri (orkestrdə ifaçılar qrupunun rəhbəri) Səid Rüstəmov olmuşdur. Notla ifa edən Azərbaycan Xalq Çalğı Alətləri Orkestri bütün Şərqdə ilk bu tipli xalq çalğı alətləri orkestridir. O, ölkənin milli musiqi mədəniyyətinin inkişafında mühüm rol oynamışdır. Orkestrin orijinal tərkibi cəmi 5 alətdən ibarət idi: tar, kamança (mizrablı simli və kamanlı simli alətlər), balaban (ağac nəfəsli alət), dəf və nağara (zərb). Sonra səslənməni daha da artırmaq üçün orkestrə başqa xalq çalğı alətləri də əlavə edildi: qoşa-nağara (zərb), zurna, tütək (ağac nəfəsli), qanun (simli), həmçinin Avropa alətləri: fortepiano, kontrabas, klarnet və s.

1935-ci ildən orkestrin dirijoru vəzifəsi Səid Rüstəmova həvalə edilmişdir, bəstəkarın vəfatından sonra orkestr Səid Rüstəmovun adını daşıyır.

Üzeyir Hacıbəyli bu orkestr üçün “Şur”, “Çahargah” fantaziyalarını, Qərbi Avropa, rus bəstəkarlarının əsərlərini, eyni zamanda Azərbaycan xalq mahnı və rəqslərini işləmişdir. “Fantaziya” yunan dilindən tərcümədə “tamaşa”, “təxəyyül” deməkdir. Musiqidə fantaziya ənənəvi çərçivədən kənara çıxan orijinal formada olan əsərlərə deyilir.

“Çahargah” fantaziyasında Üzeyir Hacıbəyli “Çahargah” muğamının intonasiyalarından, ritmik xüsusiyyətlərindən, lad-məqam əsaslarından geniş istifadə etmişdir. Bu əsərin xarakteri qətiyyətli, təsdiqedici, qəhrəmanidir.

***Ü.Hacıbəyli. “Çahargah” fantaziyası:***
**https://www.youtube.com/watch?v=gWGDQ2ZvWnU**




Fikrət Əmirovun “Azərbaycan kapriççiosu” böyük simfonik orkestr üçün nəzərdə tutulmuşdur. Simfonik orkestr bir neçə orkestr qrupundan – simli, ağac nəfəsli, mis nəfəsli və zərb alətlərindən ibarətdir. Bu orkestr Avropada XVIII əsrin sonlarında formalaşmışdır.

Əsərin adı onun xarakterini müəyyən edir. Kapriççio gözlənilməz qarşıdurmalar, təzadlar və dəyişkən şıltaqlıqların əksi ilə bəstəkar fikrinin sərbəst formalı instrumental əsəridir. Xarakteri üsyankar, döyüşkəndir.

***F.Əmirov. “Azərbaycan kapriççiosu”:***
**https://www.youtube.com/watch?v=PaKSX0N6GCk**




“Pastoral”[2] əsərini Aqşin Əlizadə kamera orkestri üçün yazmışdır (tərkibi: fleyta, 2 qaboy, faqot, fortepiano, 3 birinci violin, 3 ikinci violin, 3 violonçel və 1 kontrabas). Bu, işıqlı çalarlarla sakit kənd həyatını təsvir edən yüngül, lirik pyesdir.

[2] Pastoral – kənd həyatından bəhs edən dramatik və ya musiqi əsəridir.

***A.Əlizadə. "Pastoral":***

[***https://www.youtube.com/watch?v=TPLtmKJbmS8***](https://www.youtube.com/watch?v=TPLtmKJbmS8)




Estrada orkestri – estrada və caz[3] musiqisini ifa edən musiqiçilər qrupudur. Bu orkestr simli, nəfəsli (o cümlədən saksofonlar), klavişli, zərb alətləri və elektron musiqi alətlərindən ibarətdir.

Azərbaycan musiqiçiləri – Rəşid Behbudov, Müslüm Maqomayev (bəstəkar Müslüm Maqomayevin nəvəsi), Tofiq Quliyev, Rauf Hacıyev və başqalarının yaradıcılığı estrada sənətini zənginləşdirmişdir. İnsanın daxili aləmini, səmimi hisslərini, həyəcanını, məhəbbətini ifadə edən Tofiq Quliyevin "Sənə də qalmaz" mahnısı görkəmli müğənni Rəşid Behbudov və Azərbaycan estrada orkestri tərəfindən ifa olunub. Musiqi lirik, melodik və oxunaqlı səslənir.

***T.Quliyev. "Sənə də qalmaz" mahnısı:***

[**https://www.youtube.com/watch?v=aDEVLsvWYDI**](https://www.youtube.com/watch?v=aDEVLsvWYDI)




***Sual və tapşırıqlar:***

1. "Orkestr" sözü nə deməkdir və onun növlərini sadalayın.
2. Dirijor kimdir?
3. Azərbaycan Xalq Çalğı Alətləri Orkestri neçənci ildə yaradılmışdır, bu orkestrə hansı alətlər daxildir?
4. Fikrət Əmirovun "Azərbaycan kapriççiosu" hansı orkestr üçün yazılmışdır?

[3] Caz – musiqi janrı olaraq Afrika ritmi ilə Avropa harmoniyası təsiri altında formalaşmışdır.

*5-ci dərs.* ***Musiqi tembrləri.***

Tembr – səsin ahəngi, onun fərdi xüsusiyyətidir. Tembr musiqinin ifadə vasitələrindən biridir. O, musiqiyə müəyyən əhval-ruhiyyə və xarakter vermiş olur. Hər bir musiqi alətinin və ya insan səsinin özünəməxsus ahəngi sayəsində biz onları bir-birindən ayıra bilirik.

Hətta ən kiçik əsərlərdə də onu ifa edən alətin rolu böyükdür. Yüngüllük, zəriflik tələb olunan yerdə ***fleyta*** (ağac nəfəsli musiqi aləti) üstünlük təşkil edir. Yüksək registrli tembrin incəliyi və şəffaflığı fleytaya təsirli ifadəlilik verir.

Tofiq Quliyevin solo fleyta və fortepiano üçün nəzərdə tutulmuş "Səhər nəğməsi"ndə təmiz, şəffaf melodiya səslənərək, sanki kənd həyatını xatırladır.

***T.Quliyev. "Səhər nəğməsi":***

**https://youtu.be/AKNy2o169Y4?si=iUnyq1FCB8VGIi91**



Səs palitrasının rəngarəngliyi, zəngin, məxməri tembri milli simli **tar** alətinə məxsusdur. Bu alət Azərbaycan xalqının sevincini, kədərini, müdrikliyini, möhkəmliyini və ruhunu özündə cəmləşdirir. Tofiq Bakıxanovun tar və orkestr üçün konsertinin I hissəsi emosional, qətiyyətli, döyüş ruhu ilə fərqlənir.

***T.Bakıxanov. Tar və orkestr üçün konsert, I hissə:***

**https://www.youtube.com/watch?v=k7jEAf_-bi8**



Yaylı simli alət olan ***violin*** xüsusi melodikliyi ilə xarakterizə olunur, ona görə də ona tez-tez rəvan, mahnıvari (oxunaqlı) melodiyalar həvalə edilir. Lakin Fikrət Əmirovun violin və fortepiano üçün yazdığı "Məhəbbət rəqsi"ndə violin başqa əhval-ruhiyyəni ifadə edir. Violinin melodiyası burada alətin zarafatlı, oynaq keyfiyyətini ifadə etmiş olur.

***F.Əmirov. "Məhəbbət rəqsi":***

**https://www.youtube.com/watch?v=7JwYERrFACA**



***Arfa*** – simfonik orkestrin simli alətidir. Bu alət harmoniya, əmin-amanlıq və poeziyanın simvolu hesab olunur. Arfanın səsi dəbdəbəli, nəcib, dərindir.

Zakir Bağırovun arfa üçün bəstələdiyi Rapsodiya muğam janrının əsasını təşkil edən improvizə üslubuna əsaslanaraq Çahargah muğamının lad harmonik və bədii keyfiyyətlərini özündə ehtiva edir.

***Z.Bağırov. Arfa üçün Rapsodiya:***

**https://www.youtube.com/watch?v=sXqIRPZMn6o**




***Suallar:***

1. Tembr nədir?
2. Fleytanın tembri necədir?
3. T.Bakıxanovun Tar və orkestr üçün konserti hansı xarakteri ilə fərqlənir?
4. F.Əmirovun “Məhəbbət rəqsi” duetində violinin hansı keyfiyyətləri açılır?
5. Rapsodiya nədir?
6. Z.Bağırovun arfa üçün Rapsodiyası hansı xarakter və hansı məqamda səslənir?

*6-cı dərs.* **Azərbaycanın tanınmış ifaçıları.**

Azərbaycanın musiqi tarixinin maraqlı səhifələrindən biri ifaçılıq sənətidir. Azərbaycanın musiqi incəsənəti tarixində bir çox görkəmli usta ifaçıların adları məlumdur. Onların musiqiyə olan sevgisi öz musiqi istedadları ilə vəhdət təşkil edir.

***Fərhad Bədəlbəyli*** – Azərbaycan Respublikasının və SSRİ-nin Xalq artisti, Azərbaycanın tanınmış pianoçusu, bəstəkarı, pedaqoqudur.

Pianoçu kimi F.Bədəlbəylinin repertuarı kifayət qədər genişdir, bura məhşur bəstəkarların əsərləri daxildir. Bəstəkar kimi isə bir sıra əsərlərin müəllifidir: simfonik orkestr üçün “Poema”, 3 fleyta üçün skertso, “Dəniz” pyesi, “Şuşa” romansı və s.

Fortepiano üçün yazılmış müstəqil proqramlı “Dəniz” əsərində Fərhad Bədəlbəyli ilk azərbaycanlı bəstəkardır ki, marinizm[4] bədii cərəyanına müraciət etmişdir. Bu pyesdə dalğavari

[4] Marinizm – dəniz mövzusuna əsaslanan bədii incəsənət janrıdır. Dənizi təsvir edən rəssamları marinistlər adlandırırlar. Musiqidə isə bu, dəniz tematikasına müraciət edən bəstəkarlardır.

passajların müxtəlif növləri istifadə olunur və onlar bütöv fakturanı əhatə edir, sərgilənən akkordlar – arpeciolar sanki yüksələn dalğaları xatırladır. Rəngarəng harmoniyaya malik mahnıyabənzər oxunaqlı melodiya dənizin obrazını yaradır.

***F.Bədəlbəyli. "Dəniz" pyesi:***
**https://www.youtube.com/watch?v=Uu41-6Q12EA**




Vaqif Mustafazadə — azərbaycanlı caz pianoçusu, bəstəkarı, Azərbaycanın Əməkdar incəsənət xadimidir. O, muğamın melodik və ritmik elementləri ilə cazı birləşdirərək, yeni caz-muğam janrının banisi kimi tarixə düşmüşdür. O, caz kompozisiyaları ilə yanaşı (onlardan "Muğam", "Xəzər dənizi", "Mart" və s.) kamera və simfonik əsərlərin müəllifidir.

Vaqif Mustafazadənin "Mart" fortepiano pyesi "Bayatı-Kürd" muğamının intonasiyaları əsasında hazırlanmış caz musiqisi nümunəsidir. Müşayiətdə bəstəkar müasir caz akkordlarının melodik səslənişindən istifadə etmişdir. Təsirli musiqi kompozisiyası sanki bahar əhval-ruhiyyəsini, havanın təravətini əks etdirən yüngül poetik eskizi xatırladır.

***V.Mustafazadə. "Mart":***
**https://www.youtube.com/watch?v=Z-DlXb9Y68c**



Azərbaycanın Xalq artisti, görkəmli violin ifaçısı, dirijor və pedaqoq Sərvər Qəniyev bir çox Azərbaycan bəstəkarlarının əsərlərinin ilk ifaçısı və redaktorudur. O, Qahirə Konservatoriyasında (Misir) simli musiqi alətləri şöbəsinin və Bilkent (Türkiyə) Simfonik Orkestrinin yaradıcısıdır.

1981-ci ildə bəstəkar Fikrət Əmirov violin və fortepiano üçün "Muğam poeması"nı bəstələyib. İlk dəfə bu əsər gözəl yaradıcı birlik – *Sərvər Qəniyev* (violin) və *Zöhrab Adıgözəlzadə* (piano) tərəfindən ifa olunub. Əsərin başlanğıc bölməsi "Çahargah" ladının improvizasiya xarakterli emosional kadensiyası (virtuoz solo ifa), sonra isə fortepiano partiyasının şıltaq rəqsi ilə seçilir. Əsər muğam kompozisiyasında olduğu kimi sərbəst quruluşa malikdir. Bu əsərin özünəməxsus üslubu təqdirəlayiqdir: burada həyəcan, ümid, sevinc və kədər ardıcıl olaraq bir-birini əvəz edir.

***F.Əmirov. «Muğam" poeması:***
**https://www.youtube.com/watch?v=8gLOWIhWFRE**




***Xan Şuşiniski***[5] Azərbaycanın Xalq artisti, geniş diapazonlu, güclü səsə malik xanəndə[6] olmuşdur. O, bütün muğamları böyük məharətlə ifa etmişdir. Lakin heç bir ifaçı Mahur-Hindini[7] onun qədər yüksək səviyyədə oxumamışdır. Xan "Segah" muğamının bütün variantlarını, "Qarabağ şikəstəsi"ni xüsusi parlaqlıqla, mükəmməl ifa etmişdir. O, "Qara göz", "Qəmərim", "Ay gözəl" və s. mahnıların gözəl ifaçısı idi.

Xan Şuşinskinin ifasında səslənən Azərbaycan xalq-vətənpərvərlik mahnısı "Şuşanın dağları başı dumanlı" Şuşa şəhərinə həsr olunub. Mahnının müəllifi Xan Şuşinskinin özüdür. Bu mahnıda Şuşa şəhəri gözəl qıza bənzədilir. Əsər tar və kamançanın muğam üslubunda müşayiəti ilə oxunur. Əsəri dinləyəndə göz önündə qədim Şuşamızın təbiət mənzərəsi canlanır, zəngin və şanlı tarixi, uca dağları, yaşıl meşələri, bir sözlə, mahnı Qarabağ bölgəsinin bütün gözəlliklərini özündə əks etdirir.

---

[5] Şuşinski – onun ləqəbidir, əsl adı və soyadı İsfəndiyar Cavanşirovdur.
[6] Xanəndə – Azərbaycan xalq musiqisi, muğam ifaçılarına deyilir.
[7] "Mahur-Hindi" fars dilindən tərcümədə "dərin dərə" mənasını verir. O, qədim muğam dəstgahlarından biridir.

***X.Şuşinski. "Şuşanın dağları başı dumanlı":***

**https://www.youtube.com/watch?v=_P1tKp96zkQ**




***Sual və tapşırıqlar:***

1. Azərbaycanın tanınmış ifaçılarını sadalayın.
2. V.Mustafazadə hansı janrın banisidir?
3. S.Qəniyevin Azərbaycan musiqi sənətində rolu ?
4. "Şuşanın dağları başı dumanlı" mahnısı nəyə həsr olunub?

*7-ci dərs.* **Azərbaycan vokal musiqisinin yaranması və inkişafı.**

Dünya xalqlarının musiqi irsi kimi Azərbaycan xalq musiqisi də vokal, instrumental, vokal-instrumental musiqisindən ibarətdir. Azərbaycan milli vokal sənətinin elmi və praktiki inkişafı Azərbaycan vokal məktəbinin banisi ***Bülbülün*** (əsl adı Murtuza Məmmədov 1897 – 1961) adı ilə bağlıdır. Azərbaycanda vokal məktəbinin inkişafı milli vokal folklorunun öyrənilməsi ilə sıx əlaqəlidir.

Görkəmli Sovet və Azərbaycan opera müğənnisi, musiqişünas-folklorşünas, pedaqoq, SSRİ Xalq artisti Bülbül (lirik-dramatik tenor) 1921-ci ildə yaradılmış Azərbaycan Dövlət Konservatoriyasında vokal təhsili almışdır. O, Azərbaycan Dövlət Konservatoriyasının vokal fakültəsini bitirən ilk azərbaycanlı olmuş, burada rus və Avropa bəstəkarlarının klassik musiqisini öyrənmişdir. Görkəmli rus müğənniləri Leonid Sobinov və Fyodor Şalyapinin yaradıcılıq fəaliyyəti Bülbülün yaradıcılığına böyük təsir göstərmişdir. Onların tanışlığı Bülbülün Moskva və Peterburq şəhərlərinə qastrol səfərlərində yaranmışdı.

1927-ci ildə Bülbül vokal sənətinə daha dərindən yiyələnmək üçün İtaliyaya getmişdir. 4 il müddətində o, dövrünün tanınmış musiqiçilərinin təsiri altında vokal sənətinin dərinliklərinə yiyələnmişdir.

Bülbül Azərbaycanda ilk vokal məktəbini yaratmaqla musiqi tariximizin yeni səhifəsini açmışdır.

**https://www.youtube.com/watch?v=FaEHFx6Dq08**

***Şövkət Məmmədova*** (1897 – 1981) ilk Azərbaycanın opera müğənnisi (lirik-koloratur soprano), pedaqoq, musiqi xadimi, SSRİ-nin Xalq artisti.

Tiflisdə ilkin musiqi təhsili aldıqdan sonra 1927 – 1930-cu illərdə təhsilini davam etdirmək üçün Avropaya (İtaliya, Paris) getmişdir. 1921 – 1948-ci illərdə Bakıda Azərbaycan Opera və Balet Teatrının solisti olmuşdur.

O, 1923-cü ildə Azərbaycanda ilk teatr texnikumunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) əsasını qoyub. 1946 – 1950-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasında vokal kafedrasına rəhbərlik etmişdir, (1949-cu ildən professor) həyatının sonuna qədər burada dərs demişdir. Ş.Məmmədovanın tələbələri arasında SSRİ və Xalq artistləri Firəngiz Əhmədova, Xuraman Qasımova, Müslüm Maqomayev, Fidan Qasımova və b. adlarını qeyd etmək olar.

**https://www.youtube.com/watch?v=KKyR9PE5HSg**

***Fidan Qasımova*** (1947) – Azərbaycanın opera müğənnisi (soprano), pedaqoq, SSRİ Xalq artisti.

F.Qasımova Bülbül adına Orta ixtisas musiqi məktəbini bitirdikdən sonra Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konsevatoriyasına daxil olmuş, 1971-ci ildə həmin müəssisənin iki fakültəsi (simli və vokal) üzrə məzunu olmuşdur. 1947-ci ildə isə Moskva Konservatoriyasının aspiranturasını[8] bitirmişdir.

Bakıya qayıtdıqdan sonra F.Qasımova M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet teatrının solisti olaraq çalışmağa başlayır. O, bir çox beynəlxalq vokal müsabiqələrində iştirak etmişdir. Onun və bacısı Xuraman Qasımovanın təşəbbüsü ilə 1997-ci ildən Bakıda Gənc Opera ifaçılarının Respublika müsabiqəsi keçirilir.

**https://www.youtube.com/watch?v=mK_crQmEBXU**

***Xuraman Qasımova*** (1951) – Azərbaycanın opera müğənnisi (soprano), Azərbaycanın Xalq artisti. O, 1975-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir. Uzun illər X.Qasımova M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet teatrının solisti olmuşdur. Onun opera repertuarına təkcə Azərbaycan bəstəkarları (Ü.Hacıbəyli, F.Əmirov və b.) deyil, həm də xarici bəstəkarların vokal əsərləri daxilidir.

Məktəbdə oxuyarkən "Liftçi qız", "Mən ki, gözəl deyildim", "Həyat bizi sınayır" kinofilmlərində rol almışdır. Sonralar müğənni kimi tanınmışdır. Bir çox beynəlxalq müsabiqələrdə iştirak etmiş, Azərbaycan Respublikasının yüksək mükafatlarına layiq görülmüşdür.

**https://www.youtube.com/watch?v=4eUgnX90wt0**

***Lütfiyar İmanov*** (1928 – 2008) Azərbaycanın opera müğənnisi (dramatik tenor), pedaqoq, SSRİ Xalq artisti.

1957-ci ildə Asəf Zeynallı adına Bakı Musiqi Texnikumunun vokal, 1968-ci ildə Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin teatrşünaslıq fakültəsini bitirmişdir. Lütfiyar İmanov 1958-ci ildən ömrünün sonuna qədər M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet teatrının solisti olmuşdur. 1965-ci ildə Moskva Böyük Teatrında, 1975-ci ildə isə La Skala Teatrında (Milan) təcrübə keçmişdir. Dünya xalq mahnıları və Azərbaycan xalq mahnıları ilə müxtəlif konsertlərdə çıxış etmişdir.

**https://www.youtube.com/watch?v=nMGTj5vD0H8**

[8] Aspirantura – yüksək dərəcəli kadr hazırlığının xüsusi forması. Aspirant gələcəyin alimidir.

***"Qaya" vokal kvarteti*** – 1960 – 80-ci illərdə geniş şöhrət qazanmış Azərbaycanın məşhur musiqi qrupudur. Ansamblın tərkibinə bu qrupun rəhbəri Teymur Mirzəyev, həmçinin Arif Hacıyev, Lev Yelisavetski və Rauf Babayev daxil idi. Kvartet Azərbaycan, ispan, polyak, rus və ingilis dillərində mahnılar ifa edirdi. Qaya qrupu ilə Tofiq Quliyev, Fikrət Əmirov, Rauf Hacıyev, Vasif Adıgözəlov, Rafiq Babayev və başqa bəstəkarlar çalışıb.

**https://www.youtube.com/watch?v=HzqUerO89-o**

***"Sevil" qadın vokal instrumental ansamblı*** 1971-ci ildə məşhur Azərbaycan caz bəstəkarı və pianoçusu Vaqif Mustafazadə tərəfindən yaradılmışdır. Ansamblın parlaq, orijinal səslənməsinə V.Mustafazadənin maraqlı aranjimanları səbəb olurdu (ya yeni, ya da tanınmış melodiyalara). Hətta köhnə, çoxdan tanış olan melodiyalar da Vaqif Mustafazadənin aranjimanında təzə və orijinal səslənirdi.

**https://www.youtube.com/watch?v=VZhO-1zXvSc**

***Sual və tapşırıqlar:***

1. Azərbaycan xalq musiqisinin irsi hansı janrlardan ibarətdir?
2. Bülbül Azərbaycan vokal musiqisində hansı rolu oynayıb?
3. İlk Azərbaycan opera müğənnisi haqqında danışın.
4. Gənc Opera ifaçılarının Respublika müsabiqəsi neçənci ildən və kimin təşəbbüsü ilə keçirilir?
5. "Qaya" və "Sevil" kvartetləri haqqında danışın.

*8-ci dərs.* **Musiqi janrları.**

Fransız dilindən tərcümədə "janr" sözü "növ" və ya "çeşid" deməkdir. Buna görə də musiqi janrı müəyyən bir musiqi əsərinin növüdür.

Musiqinin bütün janrlarını şərti olaraq 4 qrupa bölmək olar: teatr, konsert, kütləvi (məişət), dini və ritual (inam, fövqəltəbii hadisə).

Gəlin bu qrupların hər birinə ayrıca nəzər salaq və buraya daxil olan əsas musiqi janrlarını sadalayaq.

1. Teatr janrları: balet, operetta, opera, müzikl, musiqili dram, musiqili komediya və s.
2. Konsert janrları: simfoniyalar, sonatalar, oratoriyalar, kantatalar, triolar, kvartetlər, kvintetlər, süitalar, konsertlər və s.
3. Kütləvi janrlar – mahnılar, rəqslər və marşlar.
4. Dini və ya bayram mərasimləri ilə bağlı dini-ritual janrlar, məsələn, toy və yas (ağılar, mərsiyələr), Novruz bayramı və s.

Opera, balet, oratoriya, kantata, simfoniya, konsert, sonata ən böyük musiqi janrlarıdır. Amma onu da qeyd etmək lazımdır ki, sadalanan janrların hər birinin özünəməxsus xüsusiyyətləri vardır.

*Oratoriya* – xor, solist və simfonik orkestrin iştirakı ilə, konsert proqramı üçün nəzərdə tutulmuş, solo ariyalardan, reçitativlərdən (oxunaqlı nitq), ansambllardan və xorlardan ibarət böyük musiqi əsəridir.

Vasif Adıgözəlovun şair Teymur Elçinin sözlərinə yazdığı "Qarabağ şikəstəsi" oratoriyası Azərbaycan xalqının torpaqlarımızın erməni işğalından azad edilməsi uğrunda apardığı

qəhrəmanlıq mübarizəsini əks etdirir. “Qarabağ şikəstəsi” oratoriyasının musiqisi dərin qəlb həssaslığı ilə nikbinlik, ümid aşılayaraq xeyir qüvvələrin şər qüvvələr üzərində qəti qələbəyə, yüksək ədalətə inamı vəsf edir. Oratoriyanın finalı o qədər qalibiyyətli, parlaq və monumental səslənir ki, Azərbaycanın Vətən Müharibəsində qələbə çalmasına heç bir şübhə yeri qoymur.

***V.Adıgözəlov. “Qarabağ şikəstəsi”:***

**https://www.youtube.com/watch?v=9eixLUZZ0YM**



*Mahnı* – ən çox yayılmış vokal musiqi janrıdır. Mahnılar xalq və müəllif mahnılarına bölünür. Bu iki növ daim qarşılıqlı əlaqədə olur: xalq mahnılarının elementləri bəstəkarların öz yaradıcılığında istifadə olunur, ən məşhur müəllif mahnıları isə xalq mahnılarına çevrilir.

Tofiq Quliyevin “Ögey ana” filmindən “Kəndimiz” mahnısı öz parlaqlığı və şən əhval-ruhiyyəsi ilə seçilir. Mahnıda doğma torpağın, kəndin gözəlliyinə heyranlıq hissləri əks olunur.

***T.Quliyev. “Kəndimiz”:***

**https://www.youtube.com/watch?v=6n7BxjixQak**




*Konsert* (italyan dilindən “harmoniya”, “razılaşma”, latınca “rəqabət etmək” deməkdir) – orkestr ilə adətən bir və ya bir neçə solo alət üçün nəzərdə tutulmuş musiqi əsəridir. Bu janr faktiki olaraq XVIII əsrin birinci yarısında Arkancelo Korelli və Antonio Vivaldinin əsərlərində 3 hissəli kompozisiya şəklində yaranmışdır.

Fikrət Əmirovun Ərəb mövzularına Elmira Nəzirova ilə birlikdə yazdığı fortepiano və orkestr üçün konsert özünəməxsusluğu ilə seçilir. Bu, Azərbaycan musiqisində yazılmış ən əhəmiyyətli konsert əsərdir. Konsert ənənəvi 3 hissəli formada yazılmışdır. Əsər orkestrin enerjili, yüksək əhval-ruhiyyəli mövzusu ilə başlayır. Orkestrin ardınca solo fortepianonun cəsarətli və iradəli əsas mövzusu səslənir.

***F.Əmirov, E.Nəzirova. Ərəb mövzularında fortepiano və orkestr üçün konsert.***

***I hissə, əsas mövzu:***

**https://www.youtube.com/watch?v=Vwj2N4AYaLg**




Musa Mirzəyevin 2 fortepiano üçün Konsert marşı. Bu janra fortepiano dueti deyilir. Çahargah məqamında yazılmış Konsert marşı cəsarətli, canlı, qətiyyətli xarakterdədir.

***M.Mirzəyev. Konsert marşı:***

**https://www.youtube.com/watch?v=j8374r5744k**




***Sual və tapşırıqlar:***

1. Janr sözü nə deməkdir və hansı qruplara bölünür?
2. “Oratoriya” janrı haqqında danışmaq.
3. Tofiq Quliyevin “Kəndimiz” mahnısında nədən bəhs olunur?
4. “Konsert” sözü nə deməkdir?

*9-cu dərs.* ***Mahnı janrı.***

Mahnı musiqi sənətinin növlərindən biridir. Onun öz qədim tarixi var. Azərbaycan bəstəkarları müxtəlif mövzularda çoxlu sayda mahnılar yaratmışlar. Ölkəmizin bütün guşələrində, eləcə də hüdudlarından kənarda Tofiq Quliyevin, Rauf Hacıyevin, Səid Rüstəmovun, Qara Qarayevin, Qəmbər Hüseynlinin və bir çox başqa bəstəkarların gözəl mahnıları səslənir.

Qəmbər Hüseynli, Ağabacı Rzayeva, Musa Mirzəyev, Oqtay Zülfüqarovun yaradıcılığında uşaq mahnıları geniş yer tutur. Qəmbər Hüseynlinin yazdığı, sözləri Tofiq Mütəllibova məxsus olan “Cücələrim” mahnısı bütün dünyada tanınır. Mahnı canlı, parlaq, oynaq xarakterlidir, Rast məqamında yazılmışdır.

***Q.Hüseynli. “Cücələrim”:***

**https://www.youtube.com/watch?v=ev0g-aZ8FSU**




Mahnı janrının inkişafında Oqtay Zülfüqarovun böyük xidmətləri vardır. Onun əsərləri sadəliyi, yaddaqalan ritmi, asan qavranılması ilə seçilir. Təəccüblü deyil ki, onu uşaqların böyük bəstəkarı hesab edirlər. Oqtay Zülfüqarovun “Telefon”, “Kim sevirsə idmanı”, “Bayramınız mübarək” və s. mahnıları neçə-neçə nəsillərin dillər əzbəri olmuşdur.

Oqtay Zülfüqarovun “Bayramınız mübarək” mahnısında uşaqların dilindən bütün xalqa təbrik eşidirik. Bayatı-Şiraz məqamında yazılan mahnı şən və sevinc əhvalı bəxş edir.

***O.Zülfüqarov. “Bayramınız mübarək”:***




Ağabacı Rzayeva uşaqlar üçün bir çox mahnıların müəllifidir: “Kukla”, “Qaranquş”, “Balaca kapitan” və s. Cahangir Məmmədovun sözlərinə yazılmış məşhur “Kukla” mahnısı ibrətamiz və nəqledici xarakter daşıyır. Burada sanki uşaq öz kuklasına müraciət edir, onunla danışır. Gələcəkdə kuklanın daha məsuliyyətli olub, daha yaxşı dərs öyrənəcəyini arzulayır və ümid edir. Mahnı Bayatı-Şiraz məqamında yazılıb.

***A.Rzayeva. “Kukla”:***
**https://www.youtube.com/watch?v=BD2pFigldZI**



Fikrət Əmirovun Zeynal Cabbarzadənin sözlərinə yazdığı “Qatar” mahnısı qatarın ritmik, aydın hərəkətini, təkərlərin səsini təsvir edir. Mahnı Rast məqamına əsaslanır.

***F.Əmirov. “Qatar”:***
**https://www.youtube.com/watch?v=SxfJ1ORxzS8**




Cavanşir Quliyevin Əli Kərimin sözlərinə yazdığı “Əsgər marşı” nikbinliyi, mübarizliyi, qələbəyə inamı ilə seçilir. 2/4 ölçüdə, marş tempində yazılmışdır. Onun aydın ritmi, sadə melodiyası vardır, mahnı Şüştər məqamına əsaslanır.

**C.Quliyev. “Əsgər marşı”:**
**https://www.youtube.com/watch?v=OiHzd8larp8&t=1s**



Əfsər Cavanşirovun Tofiq Mütəllibovun sözlərinə yazdığı “Qış mahnısı”nda Yeni il ərəfəsində yağan qarla bağlı uşaqların şən, bayram əhval-ruhiyyəsindən bəhs edilir. Mahnı Rast məqamında, canlı, nikbin səslənir.

***Ə.Cavanşirov. “Qış mahnısı”:***

**https://www.youtube.com/watch?v=peAJSxx6Hsk**




Ötən əsrin 60-cı illərində Musa Mirzəyevin Hikmət Ziyanın sözlərinə bəstələdiyi “Yeni il” mahnısı uşaqları sevimli qış bayramı olan Yeni il münasibəti ilə sevindirmək üçün yazılmışdır. Bu mahnını nəinki uşaqlar, hətta böyüklər də dərhal sevdilər. Mahnı Rast məqamında yazılıb və melodiyası uşaq ruhuna yaxınlığı və gumrahlığı ilə seçilir.

***M.Mirzəyev. “Yeni il”:***

**https://www.youtube.com/watch?v=Q8BEhtV6U2M**




Uşaqların dili ilə aktual mövzu – sülh mövzusuna bəstəkar Rəşid Şəfəq “Göyərçinik biz” mahnısında müraciət etmişdir (söz. Zahid Xəlilindir). Mahnıda uşaqların sakit, təhlükəsiz, xoşbəxt günlərlə dolu dinc dünyaya arzuları əks olunur. Mahnı Rast məqamına əsaslanaraq canlı və ümid dolu səslənir.

***R.Şəfəq. “Göyərçinik biz”:***

**https://www.youtube.com/watch?v=rctXPGmw1Pk**



***Sual və tapşırıqlar:***

1. Hansı bəstəkarlar uşaq mahnılarına müraciət ediblər?
2. A.Rzayevanın “Kukla” mahnısı nədən bəhs edir?
3. C.Quliyevin “Əsgər marşı” hansı xarakterdə yazılmışdır?
4. Hansı mahnılar Yeni ilə həsr olunmuşdur? Müəlliflərin adlarını sadalayın.

*10-cu dərs.* **Azərbaycan xalq mahnıları, onların bəstəkarlar tərəfindən işlənməsi və istifadə olunması.**

Azərbaycan qədim, zəngin folklor ənənələri diyarıdır. Şifahi ənənəyə əsaslanan Azərbaycan xalq yaradıcılığı dörd əsas janra bölünür:

1. Mahnı;
2. Rəqs;
3. Muğam;
4. Aşıq sənəti.

XX əsrin əvvəllərində xalq yaradıcılığı nümunələri bəstəkarlar tərəfindən qayğı ilə toplanaraq yazıya alınmışdır. Onlar tez-tez əsərlərdə mövzu materialı kimi istifadə olunur. Lakin əvvəlki dövrlərdə xanəndələrin, ifaçıların, musiqiçilərin sənəti nota salınmırdı. Dildən-dilə, nəsildən-nəslə keçən bu musiqi günümüzə qədər gəlib çatmışdır.

Görkəmli rus bəstəkarı M.İ.Qlinkanın sözləri hamıya məlumdur: *“Musiqini xalq yaradır, biz isə onu yalnız aranjiman edirik”.*

Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyli öz yaradıcılığında tez-tez xalq musiqisinə müraciət etmişdir. O, 1936-cı ildə respublikada ilk çoxsəsli xoru yaratmışdır. Üzeyir bəy Azərbaycan xalq mahnılarının ilk işləmələrini məhz bu xor üçün yazmış və instrumental müşayiət kimi xalq çalğı alətləri ansamblından istifadə etmişdir.

“Aman nənə” mahnısının işlənməsində orkestr müqəddiməsi yoxdur. Girişi soprano və bas səsi əvəz edir. “Aman nənə” mahnısı Rast məqamındadır.

***“Aman nənə” Azərbaycan xalq mahnısı:***

**https://www.youtube.com/watch?v=J6kbPSgIiz4**



"Bəri bax" xalq mahnısının işlənməsi sadə və gözəl olub, özünəməxsus rəqsvari ritmik şəkli ilə seçilir. Mahnı Segah məqamına əsaslanır.

***"Bəri bax" Azərbaycan xalq mahnısı:***

**https://www.youtube.com/watch?v=XzhrtLzhJN0**




Xalq mahnılarının işlənməsi – dahi Azərbaycan bəstəkarı Fikrət Əmirovun yaradıcılığında xüsusi bir mərhələdir. O, Azərbaycan xalq musiqisinin bütün incəliklərini dərindən bilərək xalq mahnılarını özünəməxsus, orijinal şəkildə harmonizə edirdi. "Küçələrə su səpmişəm" – məhəbbətlə dolu, lirik xalq mahnısı Bayatı-Şiraz məqamında yazılmışdır.

***"Küçələrə su səpmişəm" Azərbaycan xalq mahnısı:***

**https://www.youtube.com/watch?v=h-vyppIVOkM**




Zakir Bağırov Azərbaycan musiqi incəsənətində şöhrət qazanmış nadir peşəkar bəstəkarlardandır. Onun fortepiano miniatürləri məcmuəsindən komik-nağıl miniatürləri milli çalarları ilə seçilir (7 pyesdən ibarətdir). Bəstəkar "Qubanın ağ alması" mahnısına müraciət edərək "Fortepiano üçün pyes" adı altında bu mahnını harmonizə etmişdir. Mahnı lirik, oxunaqlı melodiyası ilə seçilir, Bayatı-Şiraz məqamında yazılmışdır.

***"Qubanın ağ alması" Azərbaycan xalq mahnısı:***

**https://www.youtube.com/watch?v=QTy-C5BfdWU**




***Zakir Bağırovun işləməsi "Fortepiano üçün pyes":***

**https://www.youtube.com/watch?v=gNbR2YC2edo**




Zakir Bağırovun pyesi daha mürəkkəb musiqi dilində yazılsa da, Oqtay Zülfüqarovun "Uşaq albomu" məcmuəsindən 13-cü pyes sadə forma, asan ifa olunan ikisəsli fakturada təqdim olunur. Burada bəstəkar "Qubanın ağ alması" mahnısını öz üslubunda işləmişdir.

***O.Zülfüqarov. Pyes № 13 ("Xalq mahnısı"):***



İstedadlı bəstəkar Rəşid Şəfəq uşaqlar üçün müxtəlif janrlarda musiqi əsərləri yazıb. Onun fortepiano əsərləri sırasına həmçinin Azərbaycan xalq mahnılarının işləmələri də daxildir. Rəşid Şəfəqin "Qubanın ağ alması" xalq mahnısının işləməsi özünəməxsusluğu, sadə ifası ilə seçilir.

İstedadlı bəstəkar Sevda İbrahimovanın Azərbaycan xalq musiqisi ilə dərindən bağlı olan "Azərbaycan təranələri" məcmuəsi xüsusi diqqətə layiqdir. Bu məcmuə xalq mahnıları və

təsniflər (muğam bölmələri arasında ifa olunan vokal-instrumental janr) mövzularında yazılmış fortepiano üçün 15 əsərdən ibarətdir.

Həmin topludan “Qalada yatmış idim” xalq mahnısı kifayət qədər sürətli tempi, şən, nikbin əhval-ruhiyyəsi ilə diqqəti cəlb edir. Rast məqamında yazılmışdır. Sevda İbrahimovanın işləməsində bu pyes aşağı sinif şagirdləri üçün uyğun və sadə üslubda təqdim edilir.

***S.İbrahimova. “Qalada yatmış idim” Azərbaycan xalq mahnısının işləməsi:***




Lirik janrda ifadə olunan “Ay dili-dili” xalq mahnısında gənc oğlan, sevgilisinin gözəl keyfiyyətlərini, ona olan sevgisini təsvir edir. Melodiya lirik və melodikdir. Şur məqamında yazılmışdır. Sevda İbrahimovanın işləməsində bu melodiya sadə musiqi dili ilə təqdim olunub.

***S.İbrahimova. “Ay dili-dili” Azərbaycan xalq mahnısının işləməsi:***
**https://www.youtube.com/watch?v=jdekY6NLIYE**




Görkəmli bəstəkar Aqşin Əlizadənin IV simfoniyası səs (tenor) və simli orkestr üçün yazılmışdır. Simfoniya üç hissədən ibarətdir. “Muğamsayağı” adı əsasən simfoniyanın xarakterini və məzmununu müəyyən edir. Simfoniyanın “Şur” muğamı əsasında səslənən sonuncu, üçüncü hissəsində “Gül açdı” xalq mahnısının solo ifası sanki qəmgin, çağırışlı Azan (müsəlmanların dini ibadətə çağırışı) səsinin təəssüratını yaradır.

***A.Əlizadə. IV simfoniya, üçüncü hissə.***

***"Gül açdı" Azərbaycan xalq mahnısı:***

**https://www.youtube.com/watch?v=BbFMmFZ2Mpc** *(səslənmənin başlanğıcı – 4.18)*




***Sual və tapşırıqlar:***

1. Azərbaycan xalq yaradıcılığının əsas janrlarını sadalayın.
2. Azərbaycanda polifonik xor neçənci ildə yaradılıb və Üzeyir bəy bu xor üçün hansı xalq mahnılarının işləyib?
3. "Qubanın ağ alması" mahnısının işləmələri hansı bəstəkarlara aiddir?
4. S.İbrahimovanın "Azərbaycan təranələri" toplusuna hansı xalq mahnıları daxildir?

*11-ci dərs.* **Mahnı ifaçılıq sənəti.**

Azərbaycanda vokal sənətinin kökləri xalq, aşıq musiqisi, muğam sənəti ilə sıx bağlıdır. XX əsrin ortalarından kamera vokal yaradıcılığının inkişafına klassik vokal, muğam, folklor və estrada musiqisi istiqamətləri daxil olmağa başladı. Bütün bu sahələrdə istedadlı müğənnilər yetişmişdir.

***Rəşid Behbudov*** (1915 – 1989) – Azərbaycan estrada və opera müğənnisi, aktyor.

Onun doğum tarixi – 14 dekabr 1915-ci il – XX əsrin musiqi mədəniyyəti tarixinə əbədi olaraq qızıl hərflərlə həkk olunmuşdur. Gələcəkdə Azərbaycanı bütün dünyada şöhrətləndirmək məhz onun taleyinə yazılmışdır.

Böyük Vətən müharibəsinin ağır illərində gənc müğənni həm arxa, həm də ön cəbhədə əsgərlər qarşısında fəal çıxış edərək mahnı sənətini layiqincə təbliğ etmişdir. Müharibədən sonra R.Behbudovun rəhbərlik etdiyi konsert ansamblı qastrol səfərləri ilə keçmiş SSRİ-nin respublikalarında müvəffəqiyyət qazanmışdır.

R.Behbudovun valehedici yaddaşı var idi, hansı ölkədə olursa olsun, o, həmişə poetik və musiqi mətnlərini "ildırım sürəti ilə" öyrənir, bədii obraza dərindən yiyələnərək parlaq əsərlər yaradırdı. O, heyrətamiz yaradıcılıq uğuru qazanmışdı. R.Behbudov təbiətcə xüsusi səsə – gözəl, zil tenora malik idi. O, məlahətli səsi ilə ifa etdiyi mahnıların "ruhunu" açıb, onların parlaq milli çalarını dinləyicilərə çatdıra bilirdi.

1968-ci ildə Rəşid Behbudov bu gün onun adını daşıyan mahnı teatrının əsasını qoyub. Bu səhnədə mütəmadi olaraq müxtəlif konsertlər və musiqili tamaşalar keçirilir.

**https://www.youtube.com/watch?v=nvSaxS8fSXs**

***Şövkət Ələkbərova*** (1922 – 1993) Azərbaycan müğənnisi, Azərbaycanın Xalq artisti. Ələkbərova kiçik yaşlarında kamançada (milli simli kaman aləti) ifa edirdi. 1937-ci ildə onun istedadı bəstəkar Üzeyir Hacıbəyli və xanəndə Bülbül tərəfindən yüksək qiymətləndirilib. "Qarabağ şikəstəsi" adlı kompozisiyanı parlaq ifa etdikdən sonra Ü.Hacıbəyli Ş.Ələkbərovanı bu

dövrlərdə yaradılmış Azərbaycan Dövlət Xor kollektivinə qəbul edir və həmin vaxtdan o, müğənni kimi peşəkar fəaliyyətə başlayır.

Böyük Vətən Müharibəsi illərində Ş.Ələkbərova vətənpərvərlik mahnıları oxuyaraq cəbhəyə qastrol səfərlərinə getmişdir. 1950-ci illərdə Ş.Ələkbərova ən məhşur ifaçı kimi tanınırdı. Onun repertuarında Azərbaycan dilində olan mahnılarla yanaşı, fars, ərəb və türk dillərində mahnılar da var idi. Yaradıcılıq karyerası ərzində o, 20-dən çox ölkə – Avropa, Asiya, Afrika ölkələrində qastrol səfərlərində olmuşdur.

**https://www.youtube.com/watch?v=jcLtQTuNGAA**

***Müslüm Maqomayev*** (1942 – 2008) – Azərbaycan və Rusiya estrada və opera müğənnisi, (bariton) kino aktyoru, bəstəkar, SSRİ Xalq artisti.

M.Maqomayevin babası Azərbaycan klassik musiqisinin banilərindən biridir. 15 yaşlı Müslümün ilk çıxışı Bakı şəhərində Bakı dənizçilərinin mədəniyyət evində olub. 1962-ci ildə “Buxenvald[9] zəngləri” (“Бухенвальдский набат[10]” – Sovet şair və bəstəkarlarının faşizm əleyhinə yazdıqları şeir və mahnıları) mahnsının ifasına görə Helsinkidə (Finlandiya) keçirilən 8-ci Ümumdünya Gənclər və Tələbələr Festivalının laureatı adını qazanmışdır.

O, 1963-cü ildə Kreml sarayında (Moskva) Azərbaycan festivalının yekun konsertindəki çıxışından sonra Ümumittifaq şöhrəti qazandı. Maqomayevin ilk solo konserti də 1963-cü ildə P.İ.Çaykovski adına konsert zalında baş tutmuşdur.

1964 – 1965-ci illərdə Milanda (İtaliya) *La Scala* Teatrında təhsil alıb.

1969-cu ildə Sopotda (Polşa) keçirilən Beynəlxalq Festivalda Birinci Mükafatı, Kannda (Fransa) isə valların çoxmilyonluq tirajına görə “Qızıl Disk” mükafatını almışdır.

“Azərbaycan SSR Xalq artisti” fəxri adı aldıqdan sonra 1973-cü ildə, 31 yaşında Maqomayev “SSRİ Xalq artisti” adına layiq görülmüşdür.

1975 – 1989-cu illərdə o, Azərbaycan Dövlət Estrada və Simfonik Orkestrinin bədii rəhbəri olmuş və bu orkestrlə dəfələrlə SSRİ-nin respublikalarına qastrol səfərlərinə getmişdir. Maqomayev həmçinin xarici ölkələrdə çoxlu konsert proqramları ilə çıxış edirdi (Fransa, Bolqarıstan, Almaniya, Polşa, Finlandiya, Kanada və s.).

Müğənninin konsert repertuarına 600-dən çox əsər (ariya, romans, mahnı) daxil idi. 20-dən artıq mahnının, tamaşalara musiqi, müzikl və filmlərin müəllifidir. O, amerikalı müğənni Mario Lanza haqqında kitab yazıb.

**https://www.youtube.com/watch?v=z4HjisncZGg**

***Suallar:***

1. R.Behbudov Azərbaycan musiqi sənətində hansı rolu oynamışdır?
2. Mahnı teatrını kim və neçənci ildə yaradıb?
3. Böyük Vətən Müharibəsi illərində Ş.Ələkbərova hansı fəaliyyətlə məşğul olmuşdur?
4. M.Maqomayev hansı çıxışdan sonra ümumittifaq şöhrəti qazandı?
5. M.Maqomayev hansı şəhərlərdə beynəlxalq müsabiqə və festivallarda çıxış etmişdir?

[9] Buxenvald – II Dünya Müharibəsi dövründə Almaniyada yerləşən ölüm düşərgəsi idi.

[10] Azərbaycan dilində “nabat” sözü, adətən, bir təhlükənin, faciənin yaxınlaşması, ya da hadisələrin dramatik inkişafının simvolu kimi istifadə edilir. “Buxenvald zəngləri” bu mənada həm faciənin siqnalı, həm də qorxunun təzahürü kimi qəbul edilə bilər.

*12-ci dərs.* **XX əsrin 20 – 40-cı illərində mahnı janrı.**

Azərbaycan bəstəkarları müxtəlif mövzularda çoxlu sayda mahnılar yaratmışlar. Onların bir çoxu xalq tərəfindən sevilir, mütəmadi olaraq səslənir, peşəkar musiqiçilər, musiqisevərlər tərəfindən oxunur.

Üzeyir Hacıbəyli – bütün Azərbaycan musiqi sənətinin əbədi simvoludur. Ötən əsrin 20-ci illərin sonu, 30-cu illərinin əvvəllərində bəstəkar kütləvi mahnıların ilk nümunələrini yaradaraq milli musiqimizə həmin janr üslubunu daxil etmişdir. Bunlar “Komsomolçu qız”, “Döyüşçülərin marşı”, “Mazut”, “Qara gözlər”, “Yaxşı yol”, “Şəfqət bacısı” və s. mahnılar idi. Bu mahnılar müxtəlif janr xüsusiyyətləri ilə seçilərək, uzun illər ərzində geniş populyarlıq əldə etmişdir.

1930-cu ildə Üzeyir Hacıbəyli xalq çalğı alətləri orkestri və solo ifa üçün öz mətni əsasında “Qara gözlər” mahnısını bəstələyir. Bu mahnı üslub və ritm baxımından xalq mahnılarına yaxındır. Mahnı gümrah, şən xarakteri ilə seçilir. Bir gəncin sevgisindən və onun sevgilisinə müraciətindən bəhs edir. Mahnı Segah məqamında yazılıb.

***Ü.Hacıbəyli. “Qara gözlər”:***

**https://www.youtube.com/watch?v=FEoW6SNBQqE**



Böyük Vətən Müharibəsi illərində (1941 – 1945) Ü.Hacıbəyli çox və gərgin işləyir. Bu illərdə o, xalqımızın faşist işğalçılarına qarşı mübarizəsini əks etdirən çoxlu qəhrəmanlıq və vətənpərvərlik mahnıları yazır: “Vətən ordusu”, “Yaralı əsgərin hekayəsi”, “Yaxşı yol”, “Döyüşçülər marşı” və s.

Üzeyir Hacıbəylinin “Döyüşçülər marşı” 1942-ci ildə yazılmışdır (sözləri Səməd Vurğuna aiddir). Mahnı piano və solo ifa üçün nəzərdə tutulub. Burada əsgərlərin qəhrəmanlıq ruhundan, ordumuzun qarşıdan gələn qələbəsindən bəhs edilir. Mahnının xarakteri iradəli, yüksək əhval-ruhiyyəlidir. Mahnıda sanki qorxmaz döyüşçülərin inamlı addımları eşidilir. Rast məqamında yazılıb.

***Ü.Hacıbəyli. «Döyüşçülər marşı»:***

**https://www.youtube.com/watch?v=qbkKJGW0nQQ**



Həmin il vətənpərvərlik ruhunda yazılmış “Yaxşı yol” mahnısı da böyük məhşurluq qazandı. Mahnının əsas ideyası cəbhəyə hazırlaşan əsgərlərə uğurlu yol arzulamaqdır. Burada vətənə duyulan məhəbbət dərin və təsirli şəkildə ifadə olunur. Melodiya oxunaqlıdır, lirikdir və Şur məqamına əsaslanır.

***Ü.Hacıbəyli. «Yaxşı yol»:***

**https://www.youtube.com/watch?v=pdy-S4jRjY8**




Niyazinin 1937-ci ildə qələmə alınmış və doğma Azərbaycanı tərənnüm edən (sözləri Süleyman Rüstəmindir) “Vətən haqqında mahnı”sı bəstəkarın ən gözəl nəğmələrindəndir. Mahnı özünəməxsus və orijinaldır. Burada vətənpərvərlik mövzusu lirik-poetik planda verilir. Mahnının melodiyası asta və lirikdir. Doğma torpağının gözəlliyindən, ona olan sonsuz məhəbbətindən hərarətlə və səmimiyyətlə danışılır. Mahnı Şur məqamına əsaslanır.

***Niyazı. «Vətən haqqında mahnı»:***

**https://www.youtube.com/watch?v=8c83FzPd2z4**



Bəstəkar Süleyman Ələsgərov bütün yaradıcılığı boyu əsasən mahnı janrına müraciət edərək müxtəlif mövzulu melodiyalar, milli ruhlu mahnılar yaratmışdır. “Gözlə məni” mahnısı Böyük Vətən Müharibəsi illərində yazılmışdır (sözləri Şirzad Əliyevindir). Əsərdə müharibənin çətin anlarında sevgilisini xatırlayan və ona müraciət edərək, qalib günün sonuna qədər onu gözləməsini xahiş edən bir əsgərdən bəhs edilir. Mahnı kədərli və melodikdir, Şur məqamında yazılmışdır.

***S.Ələsgərov. “Gözlə məni” mahnısı:***

**https://www.youtube.com/watch?v=5IZdKExHL1c**




***Sual və tapşırıqlar:***

1. Üzeyir Hacıbəylinin məşhur mahnılarını sadalayın.
2. Niyazinin “Vətən haqqında mahnı”sında nədən bəhs edilir?
3. S.Ələsgərovun “Gözlə məni” mahnısı hansı illərdə yazılıb?

*13-cü dərs*. **XX əsrin 50 – 90-cı illərində mahnı janrı.**

İkinci Dünya Müharibəsindən sonra xalqımız dinc quruculuq işlərinə başladıqda Azərbaycanda xüsusilə neftçilərin, pambıq tarlasının qəhrəmanlarının, inşaatçıların, istehsal novatorlarının, alimlərin, incəsənət xadimlərinin və s. əməyini tərənnüm edən mahnılar məhşurlaşdı.

XX əsrin 50-ci illərində Səid Rüstəmovun sadə bir qıza, onun əməksevərliyinə həsr etdiyi “Sürəyya” mahnısı (sözləri Zeynal Cabbarzadə) bütün ölkədə əks-səda yaradaraq böyük məşhurluq əldə etmişdir. Bu mahnıda bəstəkar əmək qəhrəmanlığı ideyasını ön plana çəkir. Onun iş həyatında əzmkarlığı hər kəsi xoşbəxt gələcəyə can atmağa ruhlandırırdı. Mahnı canlı, şən xarakterdə, Bayatı-Şiraz məqamında yazılmışdır.

***S.Rüstəmov. “Sürəyya”:***

**https://www.youtube.com/watch?v=I1GGJXDJLDS**



Azərbaycan bəstəkarları respublikamızın paytaxtı Bakıya çoxlu mahnılar həsr etmişlər. Bu mahnılarda Bakı bütün ölkəni təcəssüm etdirir.

Tofiq Quliyevin “Bakı haqqında mahnı”sı (sözləri Zeynal Cabbarzadə) Vətənə, bakılıların yaşayıb-yaratdıqları şəhərə olan məhəbbətin çox səmimi, ilhamlı ifadəsidir. Alovlu məhəbbət, dəniz sahilində yerləşən şəhərə heyranlıq bəstəkar və şair tərəfindən çox sadə və təbii şəkildə ifadə olunur. Mahnı sanki sevinclə parlayır, o, günəş işığı, şəfəqlə doludur və Rast məqamında yazılmış ruhlandırıcı və coşğulu hisslərlə səslənir.

***T.Quliyev. “Bakı haqqında mahnı”:***
**https://www.youtube.com/watch?v=sfWWB583MfY**




Vətən sevgisini özündə ehtiva edən Rauf Hacıyevin (sözləri Ənvər Əlibəyli) “Azərbaycan” mahnısı öz səmimiliyi və duyğusallığı ilə diqqət çəkir. Mahnı Çahargah məqamındadır.

***R.Hacıyev. “Azərbaycan”:***
***https://www.youtube.com/watch?v=nvSaxS8fSXs***




Polad Bülbüloğlunun “Azərbaycan” (sözləri Məstan Günər) mahnısı da Vətən sevgisindən bəhs edir, onun gözəlliyini və qüdrətini tərənnüm edir. Mahnının parlaq, yaddaqalan melodiyası xalq mahnı və rəqslərinin intonasiyaları ilə uyğunlaşır. 6/8 ölçü mahnıya rəqs xarakteri vermiş olur. Əsər Rast məqamında yazılmışdır.

**_P.Bülbüloğlu. “Azərbaycan”:_**
**https://www.youtube.com/watch?v=Jw5bkC2WNsg**




Cahangir Cahangirovun “Qarabağ” (sözləri Rəfiq Zəka) mahnısı da doğma yurdun, Azərbaycanın poeziya və musiqisinin beşiyi olan qədim Qarabağın gözəlliyini tərənnüm edir. Bura əsrarəngiz təbiəti, zəngin mənəvi və mədəni ənənələri olan, gözəlliyi ilə bizə cənnəti xatırladan diyardır. Mahnı Bayatı-Şiraz məqamında verilmiş, şən, nikbin ruhludur.

**C.Cahangirov. “Qarabağ”:**
**https://www.youtube.com/watch?v=wuRlU3hDn_c**




1960-cı illərdə Cabir Novruzun sözləri əsasında Oqtay Kazıminin “Həyat, sən nə qəribəsən?” mahnısı yaranır. Bu mahnı sanki həyatımızın fəlsəfi[11] məzmununu açır. Milli adət-ənənələrə söykənən bu mahnı insanlarda emosional məmnunluq yaradır, həyata ruhlandırır, gəncləri sevgiyə səsləyir. Mahnının Bayatı-Şiraz məqamında yazılmış oxunaqlı, lirik melodiyası keçmişi xatırladır.

[11] Fəlsəfə – təbiətin, cəmiyyətin və təfəkkürün inkişaf qanunauyğunluqları haqqında elm.

***O.Kazımi. "Həyat, sən nə qəribəsən":***
**https://www.youtube.com/watch?v=rH_017ZzuEc**




Doğma Xəzər dənizinə məhəbbət rəssamlarımız Səttar Bəhlulzadə, Tahir Salahov və başqalarının bir sıra rəsm əsərlərində öz əksini tapmışdır. Xalq rəssamı Tahir Salahovun "Təmirçilər" adlı əsərində rəssamın Xəzər dənizinə olan sevgisi aydın şəkildə ifadə olunur.



Həmçinin dahi bəstəkar Qara Qarayevin "Gənclik mahnısı"nda Xəzər dənizinin əzəməti, "Neft Daşları" adlanan şəhərin siması öz əksini tapmışdı.

***Q.Qarayev. "Gənclik mahnısı":***
***https://youtu.be/P4hYIQ6AJ_c?si=BficnnCjj7YchWLK***



1966-cı ildə bəstəkar Ramiz Mirişli Tofiq Bayramın sözlərinə "Mənim ürəyimsən" mahnısını bəstələyərək Xəzərə olan sonsuz məhəbbətini açıq şəkildə ifadə etmişdir. Mahnı təsirli, parlaq, şəndir, Şüştər məqamında yazılmışdır.

***R.Mirişli. "Mənim ürəyimsən":***

**https://www.youtube.com/watch?v=QsTCoWdXkfE**




Ötən əsrin 70-ci illərində Azərbaycan estradası tarixində daha bir lirik mahnı Emin Sabitoğlu tərəfindən "Bakı, sabahın xeyir" (sözləri İslam Səfərlinin) mahnısı yazılır. Təsadüfi deyil ki, uzun illər Azərbaycan televiziya və radiosunda Bakı səhərinin himni kimi səslənən bu mahnı paytaxt sakinlərini səhərin şəfəqləri ilə salamlayır, onlarda nikbin, pozitiv əhval-ruhiyyə aşılayırdı. Mahnı bizi nəinki keçmiş xatirələrə qaytarır, həm də, sanki daha parlaq gələcəyə səsləyir. Əsər lirik və poetik xarakterlidir, Rast məqamında yazılmışdır.

***E.Sabitoğlu. "Sabahın xeyir, Bakı":***

**https://www.youtube.com/watch?v=YvRRpEoTZqU**




XX əsrin 70-ci illərinin ortalarında istedadlı bəstəkar Cavanşir Quliyev Dilsuz Mustafayevin sözlərinə "Bura Vətəndir" mahnısını bəstələyir. Bu mahnı həm də doğma diyarın tarlalarını, çaylarını, göllərini, günəşli Azərbaycanın şəhərlərinin gözəlliyini tərənnüm edir. Segah məqamına əsaslanan bu melodiyada C.Quliyev aşıq musiqisinin ritmlərindən bəhrələnib.

*C.Quliyev. "Bura Vətəndir":*
**https://www.youtube.com/watch?v=kw8WMyRdxXs**




1977-ci ildə vətənpərvərlik ruhunda daha bir əsər – Musa Yaqubun sözlərinə Azər Dadaşovun "Qızıldan" mahnısı bəstələnmişdir. Mahnı xoşbəxtlik və sevinclə dolu həyatı, işıqlı gələcəyi və dövlətçilik rəmzlərindən olan Azərbaycanın bayrağını tərənnüm edir. Əsər sevinc, günəş işığı və nikbinliklə parlayır. Sürətli temp həm də musiqiyə gümrahlıq və bayram əhval-ruhiyyəsi bəxş etmiş olur. Mahnı Bayatı-Şiraz məqamında yazılmışdır.

*A.Dadaşov. "Qızıldan":*
**https://www.youtube.com/watch?v=qBTY7H8aJqo**




**Suallar:**

1. S.Rüstəmovun "Sürəyya" mahnısında nədən bəhs olunur?
2. Azərbaycan bəstəkarlarının hansı mahnıları doğma Azərbaycana həsr olunub?
3. Xəzəri hansı sənət əsərləri tərənnüm edir?
4. A.Dadaşovun "Qızıldan" mahnısı hansı xarakter və hansı məqamda yazılmışdır?

*14-cü dərs.* **Müasir dövrün Azərbaycan bəstəkarlarının mahnıları.**

XX əsrin 90-cı illəri Azərbaycan xalqının həyatında dönüş nöqtəsi olmuşdur. 90-cı illərin əvvəllərindən Azərbaycan SSRİ-dən ayrılaraq müstəqil demokratik dövlətə çevrildi. Həmin dövrün çətinliklərinə baxmayaraq, bütün digər fəaliyyət sahələri kimi, Azərbaycan musiqi mədəniyyəti də öz inkişafını davam etdirmişdir.

1988-ci ildə bəstəkar Eldar Mansurov Vahid Əzizin sözlərinə “Bayatılar” (lirik Azərbaycan dörd sətirli şeir janrı) mahnısını yazır. Çox keçmədən mahnı respublikamızın hüdudlarından kənarda da tanınmağa başladı. 15-dən çox ölkə bu mahnını müxtəlif variantlarda ifa edir. Sakit, səmimi, lirik “Bayatılar” mahnısında qəhrəmanın düşüncələrini, arzularını, sevgisini hiss etmək olar. Major və minorun bir-birini əvəz etməsi rəngarəng çalarlar yaradır, qəmli-həzin musiqi sanki parlaq işıqla dolur. Əsər Bayatı-Şiraz məqamına əsaslanır.

***E.Mansurov. “Bayatılar”:***

**https://www.youtube.com/watch?v=fSuRaYaaUR8**




90-cı illərdə respublika bəstəkarlarının yaradıcılığında müasir həyatla bağlı yeni mövzular, obrazlar yaranmışdır. Onların yaradıcılığında Qarabağ hadisələrinin, 20 Yanvar, Xocalı faciəsinin vətənpərvərlik mövzusu mühüm yer tutur. Cövdət Hacıyevin “Şəhidlər”, Azər Rzayevin “Bakı – 90”, Azər Dadaşovun “20 Yanvar” simfoniyaları, Vasif Adıgözəlovun “Qəm karvanı” oratoriyası və digər əsərləri bəstəkarlarımızın bu illərdəki əhval-ruhiyyəsinin ifadəsidir .

Eldar Mansurovun Nahid Hacızadənin sözlərinə “Qalx, qalx, ulu torpaq” mahnısı Qarabağ uğrunda mübarizənin himni oldu. Uzun illər ərzində bu mahnı böyük məhəbbət və qürurla, döyüşə çağırış kimi səslənirdi. “Qalx, qalx, ulu torpaq” vətənpərvərlik mahnısı Qarabağ müharibəsində əsgərlərimizi ruhlandırır, xalqın döyüş əzmini gücləndirərək, onların qələbəyə inamını itirməsinə imkan verməmişdir. Mahnı Bayatı-Şiraz məqamında qəhrəmancasına yüksək əhval-ruhiyyə ilə səslənir.

***E.Mansurov. “Qalx, qalx, ulu torpaq”:***

**https://www.youtube.com/watch?v=C39Jkx5QmvE**

Bəstəkarlar 1990-cı il 20 Yanvar hadisələrini əks etdirən musiqi əsərlərində bu ədalətsizliyə, günahsız insanların qətlə yetirilməsinə öz etirazlarını musiqi vasitəsilə ifadə etməyə çalışmışlar. Əbəs yerə demirlər ki, mahnı da bir silah növüdür. Qeyd edək ki, irihəcmli musiqi əsərləri ilə yanaşı, “şəhidlər”ə həsr olunmuş xeyli sayda mahnı və romanslar da yazılıb və yazılmaqdadır. Onların arasında Emin Sabitoğlunun Bəxtiyar Vahabzadənin sözlərinə “Şəhidlər fəryadı”, Hacı Xanməmmədovun Əzizə Cəfərzadənin sözlərinə “Əlimdə sazım ağlar” və s. göstərmək olar.

Həmçinin Oqtay Rəcəbovun Məmməd Aslanın sözlərinə “Ağla, qərənfil, ağla” mahnısı Qara Yanvara həsr olunmuşdur. Bəstəkar böyük kədərlə o günün faciəsindən bəhs edir və bu sağalmaz yara indi də ürəyimizi ağrıdır. Təəssüf ki, günahsız bacı-qardaşların, körpələrin ölümü yaddaşlardan heç vaxt silinməyəcək. 1990-cı ilin yanvarından Azərbaycanda qərənfillər matəm çiçəyi kimi tanınmağa başlayıb, çünki həmin faciəli gündən sonra şəhidlərin məzarları üzərinə qərənfillər qoyulurdu. Mahnının ahəngli, oxunaqlı melodiyası Bayatı-Şiraz məqamında yazılmışdır.

***O.Rəcəbov. “Ağla, qərənfil, ağla”:***
**https://www.youtube.com/watch?v=9NuCXt9bU4E**

1995-ci ildə rejissor Ənvər Əbluc “Ağ atlı oğlan” bədii filmini çəkir. Filmin musiqisini Oqtay Rəcəbov bəstələyir. Bu hərbi-vətənpərvərlik filmində bir məktəblinin böyüklərlə birlikdə Qarabağın azadlığı uğrunda erməni işğalçılarına qarşı müharibədə necə qəhrəmancasına vuruşmasından bəhs edilir.

Bu filmdən (sözləri Ramiz Rövşənə aid) “Gəl, ağlama” mahnısı o dövrün reallığına uyğun olaraq xalqın istək və niyyətini, əhval-ruhiyyəsini ifadə edir. Bu nəğmənin intonasiyasında qəm-qüssə və qəlb ağrıları ilə yanaşı gələcəyə inam da səslənir. Bayatı-Şiraz məqamında yazılmışdır.

***O.Rəcəbov. “Gəl, ağlama”:***
**https://www.youtube.com/watch?v=2qJmlZCaX0w**

***Suallar və tapşırıqlar:***

1. E.Mansurovun “Bayatılar” mahnısında nədən bəhs olunur?
2. XX əsrin 90-cı illərində Azərbaycanda hansı hadisələr baş vermişdi?
3. Qarabağ müharibəsinə hansı mahnılar həsr olunub?
4. 1990-cı ildən sonra qərənfil çiçəyi hansı simvola çevrildi?

*15-ci dərs.* **Rəqs janrı. Azərbaycan xalq rəqslərinin bəstəkar yaradıcılığında istifadə olunması.**

**Rəqs janrı.** Azərbaycan ərazisində xalq rəqs sənətinin yaranması və formalaşması prosesi uzun və çoxəsrlik olmuşdur. Azərbaycan xalq rəqsləri xarakterinə və ritminə görə yavaş, rəvan və cəld templərə bölünür. Mövzu məzmununa görə müxtəlif olub – əmək (“Çoban”), mərasim (təqvim, toy), məişət (“Mirzəyi”, “Turacı”), qəhrəmanlıq-hərbi (“Cəngi”), kollektiv rəqs və oyunlar (“Yallı”, “Halay”) və s. növlərə bölünür.

Bir çox rəqslərin, xüsusən də qədim rəqslərin adları sevimli heyvanların və ya bitkilərin adlarıdır: bunlar “ceyrani”, “lalə”, “bənövşəyi”, “innabı” (innabı meyvəsinin rəngidir, tünd qırmızı meyvəsi olan ağacdır) və s.

Azərbaycanın milli rəqsi olan *“Cəngi”* cəngavər addımı, döyüşə çağırış deməkdir. Bu rəqsin tarixi çox qədimdir. Azərbaycan ərazisində Cəngi (indiki Qobustan rayonunun ərazisi) adlı yer də var. Bu rəqs döyüşlərdə, yarışlarda və hərbi mərasimlərdə istifadə olunurdu. Rəqsin əsası Çahargah məqamında qurulur, xarakteri çağırışlı, döyüşkəndir.

***“Cəngi”:***
**https://www.youtube.com/watch?v=I5x876Vbn00**



İlk dəfə Üzeyir Hacıbəylinin "Koroğlu" operasında səslənən "Cəngi" daha sonra digər bəstəkarlar tərəfindən istifadə edilmişdir: Aqşin Əlizadənin kamera orkestri üçün "Cəngi"; Süleyman Ələsgərovun Xalq çalğı alətləri orkestri üçün "Cəngi"; Vasif Adıgözəlovun "Novruzum" kantatası; İsmayıl Hacıbəyovun fortepiano və orkestr üçün "Cəngi" rapsodiyasını və s. əsərləri misal gətirmək olar.

Qədim Azərbaycan xalq qadın rəqsi *"Turacı"* lirik və zərif melodiyası ilə seçilir. Rəqsin adı quşun adı ilə bağlıdır.

İlk "Azərbaycan rəqs melodiyaları" məcmuəsi Səid Rüstəmov tərəfindən hazırlanmış və 1937-ci ildə nəşr edilmişdir. Bu topluya "Uzundərə", "Tərəkəmə", "İnnabı", "Darçını", "Şələxo" və s. rəqslər daxil idi.

Tofiq Quliyevin fortepiano üçün işlədiyi "Turacı" rəqsi "15 Azərbaycan xalq rəqsi" məcmuəsinə daxildir. Bu rəqs Rast məqamında yazılmışdır.

Müslüm Maqomayevin "Nərgiz" operasının birinci pərdəsində əsərin baş qəhrəmanı Nərgizin iştirakı ilə səslənən xor səhnəsində Turacı xalq rəqsinin melodiyasından istifadə olunmuşdur.

***T.Quliyev. "Turacı" Azərbaycan xalq rəqsinin işləməsi:***
**https://www.youtube.com/watch?v=HONw415ZCGg**



*"İnnabı"* qədim Azərbaycan qadın xalq rəqslərindən biridir. "İnnab" adı "tünd qırmızı rəng" deməkdir. Bu, qadınların toy mərasimlərində zinət əşyaları, şallar, parçalarla bəzənərək simvolik olaraq qırmızı rəngə boyanmasına işarədir.

Zərif rəqs son dərəcə melodikdir. Gözəl xanəndəmiz Bülbül "İnnabı" rəqsinin melodiyasına söz qoşaraq onu nəğmə kimi oxumuşdur. Rəqs Rast məqamına əsaslanır.

***"İnnabı" Azərbaycan xalq rəqsi:***
**https://www.youtube.com/watch?v=PNWl-YK3VUU**



Xalq rəssamı Əzim Əzimzadənin “Varlı evində toy” tablosunda, şəklin mərkəzində rəqs edən zəngin qadın təsvir olunur. Bu qadının geyimi və görünüşü “İnnabı” rəqsində verilən təsvirə tam uyğun gəlir.



*“Uzundərə”* – toylarda tez-tez ifa olunan solo qadın rəqsidir. Bu Azərbaycan xalq rəqsinin orijinal, gözəl, lirik melodiyası var. “Uzundərə” rəqsi Qarabağda, Uzundərə ərazisində toydan əvvəl bu dərədən keçən gəlin-qızların rəqsi kimi yaranmışdır. Adı çəkilən rəqsin melodiyasını Üzeyir Hacıbəyli “O olmasın, bu olsun” musiqili komediyasında Məşədi İbadın “Mən nə qədər, nə qədər qoca olsam da” mahnısında istifadə etmişdir. Şüştər məqamına əsaslanır.

***Ü.Hacıbəyli. “Mən nə qədər, nə qədər qoca olsam da”:***

**https://www.youtube.com/watch?v=DT10Dq4QnPA**




Azərbaycanın qədim tayfalarından birinə həsr olunmuş məşhur xalq rəqsi *“Tərəkəmə”* (“Köçərilərin rəqsi”) sürətli və çevikdir. El şənliklərində, toylarda ifa olunur. Rəqsdə istifadə olunan əsas musiqi alətlərindən biri, milli taxta nəfəs aləti zurnadır. Rəqs Segah məqamında yazılıb.

Bu rəqs sovet bəstəkarı Reynqold Qliyerin “Təntənəli uvertüra” simfonik əsərində, eləcə də Üzeyir Hacıbəylinin “Arşın mal alan” musiqili komediyasında Asyanın rəqsində və Əfrasiyab Bədəlbəyli tərəfindən ilk Azərbaycan baleti, “Qız qalası”nın proloqunda istifadə edilmişdir.

***“Tərəkəmə” Azərbaycan xalq rəqsi:***
**https://www.youtube.com/watch?v=jDZNhP2erOE**




Azərbaycan xalq rəqsi *“Darçını”*nın adı Azərbaycanda istifadə olunan darçının[12] adı ilə bağlıdır. Rəqs təbiətcə yumoristik, şən melodiyaya malikdir.

“Darçını” rəqsinin melodiyasından Üzeyir Hacıbəyli “O olmasın, bu olsun” operettasında istifadə edib. Burada rəqsin melodiyası Məşədi İbad və Rüstəm bəyin duetində komik mahnı-dialoqa çevrilir.

***“Darçını” Azərbaycan xalq rəqsi:***
**https://www.youtube.com/watch?v=FWoQUQsq0Cg**




Bir çox variantlarda tanınan *“Yallı”* (kütləvi dairəvi rəqs) xalq arasında çoxdan məşhur olmuşdur. Rəqs ifadəli, emosionaldır. “Yal” sözünün Azərbaycan dilində bir neçə mənası var ki, onlardan biri də “dağlar” deməkdir. Güman edilir ki, rəqsin adı sözün bu mənasına yaxındır. Deməli, əl-ələ tutan Yallı rəqqasları müəyyən mənada dağ silsiləsini xatırladır. Bu rəqs əsasən toylarda, şadlıqlarda, el şənliklərində ifa olunur.

“Yallı” rəqsi Üzeyir Hacıbəylinin “Koroğlu” və Müslüm Maqomayevin “Nərgiz” operalarında, eləcə də Soltan Hacıbəyovun “Gülşən” baletində istifadə edilmişdir. Qara Qarayevin “Yeddi gözəl” baletində bu rəqs müxtəlif obrazlara uyğun şəkildə dəyişir: məsələn, xalq səhnələrində cəsarətli və qəhrəmancasına, Ayşə ilə Mənzərin rəqs oyununda zarafatyana, Vəzirin ifasında isə bu rəqs karikatura tərzində səslənir.

Rauf Hacıyev də bu mövzuya müraciət edib və “Yallı” balet miniatürünü bəstələyib. Təqdim edilən “Yallı “ rəqsi Şur məqamında yazılmışdır.

---

[12] Darçın – yeməkdə ədviyyat kimi istifadə olunan bitkidir.

***"Yallı" Azərbaycan xalq rəqsi:***
**https://www.youtube.com/watch?v=qIzKunMAta4&list=RDqIzKunMAta4&start_radio=1**




Azərbaycan xalq kişi rəqsi *"Şələxo"* bütün Qafqazda məşhurdur. Rəqsin xalq variantları bir-birindən fərqlənir. Rəqs sürətli, ehtiraslı bir xarakterə malikdir. Bu rəqsi böyük həvəslə oynayırlar. Rəqsin ritmində dəyişiklik müşahidə olunur – enerjili-dinamikdən axıcıya və əksinə.

Əfrasiyab Bədəlbəylinin "Qız qalası" baletində "Şələxo" rəqsindən istifadə olunub. Sonralar "İzahlı monoqrafik lüğət"də bəstəkar "şələxo" sözünün və rəqsin tarixinin izahını vermiş, bununla da onun konkret olaraq Azərbaycan xalq rəqslərinə aid olduğunu tam əsaslandırmışdı. "Şələxo" sözü ("şələ yüküm", yəni "ağır yük" deməkdir) illər keçdikcə qısaldılmış və dəyişdirilmişdir.

***"Şələxo" Azərbaycan xalq rəqsi:***
**https://www.youtube.com/watch?v=nDWlZ5AJsUE**




***Sual və tapşırıqlar:***

1. Azərbaycan xalq rəqsləri hansı növlərə bölünür?
2. Hansı bəstəkarlar öz əsərlərində "Cəngi" rəqsinə müraciət etmişlər ?
3. Ü.Hacıbəylinin "O olmasın, bu olsun" musiqili komediyasında hansı xalq rəqsləri səslənir?
4. "Tərəkəmə" xalq rəqsi hansı əsərlərdə istifadə olunub?
5. "Şələxo" rəqsi haqqında danışın.

*16-cı dərs.* **Rəqs sənətinin tanınmış ifaçıları haqqında söhbət.**

Azərbaycanda xoreoqrafiya təhsili XX əsrin əvvəllərində mövcud idi. Bakıda balet studiyası haqqında ilk məlumat 1922-ci ilə təsadüf edir. Təşəbbüsçülər Üzeyir Hacıbəyli və Müslüm Maqomayev olmuşlar.

1933-cü ildə balet studiyası balet məktəbinə, sonra xoreoqrafiya məktəbinə, 21-ci əsrdə isə xoreoqrafiya akademiyasına çevrilmişdir. Uzun illərdir ki, Bakı Xoreoqrafiya Məktəbi gənc balet sənətinin tədrisində layiqincə fəaliyyət göstərmişdir.

Qəmər Almaszadə, Leyla Vəkilova, daha sonra Rəfiqə Axundova, Tamilla Məmmədova və başqaları kimi görkəmli xoreoqrafiya ustaları və müəllimləri, milli rəqslərin ifaçıları Əminə Dilbazi, Roza Cəlilova, Əlibaba Abdullayev, Böyükağa Məmmədov, Böyükağa Atababayev, Afaq Məlikova və b. milli mədəniyyətimizi təmsil etmişlər.

***Qəmər Almaszadə*** (1915 – 2006) – balet ifaçısı, xoreoqraf, baletmeyster, pedaqoq, SSRİ-nin Xalq artisti Azərbaycanın və Şərqin ilk balerinası olmuşdur.

O, ilk dəfə 6 yaşında özəl studiyada (daha sonra opera teatrı məktəbində) baletlə məşğul olmuşdur. 1930-cu ildə M.F.Axundov adına Azərbaycan Opera və Balet Teatrında balerina kimi təhsilini bitirdikdən sonra Qəmər Almaszadə 1933 – 1936-cı illərdə Leninqrad Xoreoqrafiya Texnikumunda (indiki A.Vaqanova adına Rus Balet Akademiyası) təhsil almışdır.

1937-ci ildə Azərbaycan Mahnı Ansamblı Azərbaycan Filarmoniyasının Dövlət Rəqs Ansamblına rəhbərlik etmiş və xalq rəqslərini səhnələşdirmişdir.

1970-ci ildə Qəmər Almaszadə İraqın Mədəniyyət Nazirliyi tərəfindən Bağdada dəvət olunmuş və burada onun rəhbərliyi altında İraq Xalq Rəqsləri Ansamblı yaradılmışdır. Həyat yoldaşı Əfrasiyab Bədəlbəyli (1907 – 1976) – Azərbaycan bəstəkarı, dirijor, musiqişünas, Azərbaycanın Xalq artistidir. Onun tələbələri arasında Leyla Vəkilova, Rəfiqə Axundova və b. kimi tanınmış rəqs ifaçıları var.

**https://www.youtube.com/watch?v=666O-H5uIy4**

***Leyla Vəkilova*** (1927 – 1999) – Azərbaycan balerinası, pedaqoq, SSRİ Xalq artisti

1943-cü ildə Bakı Xoreoqrafiya Məktəbini bitirmiş, sonra Moskva Xoreoqrafiya Məktəbində təhsilini davam etdirmişdir. 1943-cü ildən M.F.Axundov adına Azərbaycan Opera və Balet Teatrının solisti olmuşdur. 1992-ci ildən isə Bakı Xoreoqrafiya texnikumunun rəhbəri vəzifəsində çalışmışdır. Məşhur balerina xaricdə (Polşa, Suriya, Çexoslovakiya, Hindistan, Bolqarıstan, Fransa, Macarıstan və s.) qastrol səfərlərində olmuş, bir sıra filmlərdə də rol almışdır.

**https://www.youtube.com/watch?v=mVDCS-6S15A**

Azərbaycanda ilk peşəkar rəqs kollektivi 1938-ci ildə həvəskar tamaşalar əsasında yaradılmışdır. O dövrün aparıcı ifaçıları arasında Azərbaycan SSR Xalq artisti *Əminə Dilbazi*, Respublikanın Xalq artistləri *Əlibaba Abdullayev, Böyükağa Məmmədov,* Respublikanın Əməkdar artistləri *Roza Cəlilova, Aliyə Ramazanova* və b. adlarını çəkmək olar.

***Əminə Dilbazi*** (1919 – 2010) – Azərbaycan rəqqasəsi, xoreoqraf.
İlk dəfə 1935-ci ildə səhnəyə çıxan aktrisa Üzeyir Hacıbəylinin “Kolxoz çöllərində” mahnısını ifa edib. 1936 – 1939-cu illərdə Azərbaycan Dövlət Filarmoniyasının mahnı və rəqs ansamblının solisti olub.

1959-cu ildə Azərbaycanda Əminə Dilbazinin rəhbərliyi ilə "Çinar" qızlar rəqs ansamblı yaradılmışdır. 1967-ci ildə Ə.Dilbazi "Sevinc" qadın ansamblını yaradır. Onun ifa etdiyi rəqslər "İnnabı", "Tərəkəmə", "Turaci", "Naz eləmə"dir. Rəqqasənin repertuarına rus, ukrayna, özbək və ərəb rəqsləri də daxil idi.

O, 1957-ci ildə Moskvada keçirilən Gənclər və Tələbələrin VI Beynəlxalq Festivalında qızıl medala layiq görülmüşdür. Əminə Dilbazinin həyat yoldaşı bəstəkar Cövdət Hacıyev olub.

**https://www.youtube.com/watch?v=P0PKpZt-Mcw**

***Böyükağa Məmmədov*** (1927 – 2018) – Azərbaycanın Xalq artisti. 1955-ci ildə Bakı Xoreoqrafiya Məktəbini bitirib. 1946 – 1966-cı illərdə Dövlət Filarmoniyasının mahnı və rəqs ansamblının solisti olub. Uzun müddət "Cücələrim" rəqs ansamblına rəhbərlik edib.

1971-ci ildən Bakı Xoreoqrafiya Məktəbində dərs demişdir.

Böyükağa Məmmədov Fransa, İran, Əfqanıstan, Almaniya, Macarıstan və dünyanın digər ölkələrində keçirilən festivallarda Azərbaycanı təmsil edmişdir. 2011-ci ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

**https://www.youtube.com/watch?v=H2Oq6Hyye4c**

Müasir dövrümüzdə respublikanın aparıcı kollektivi Azərbaycan Dövlət Rəqs Ansamblıdır. Ansambla Azərbaycanın Xalq artisti ***Afaq Məlikova*** rəhbərlik edir.
Bu ansamblın nümayəndələri Təranə Muradova, Eteri Cəfərova, Emin Əliyev və başqalarıdır.

Azərbaycanın ilk balerinası Qəmər Almaszadə və onun tələbəsi Leyla Vəkilova, həmçinin Azərbaycan Respublikasının Xalq artistləri Çimnaz Babayeva və Rəfiqə Axundova Azərbaycan baletinə mühüm töhfələr vermişlər.

**https://www.youtube.com/watch?v=IBlklKhmIsA**

***Sual və tapşırıqlar:***

1. Azərbaycanda balet məktəbi neçənci ildə yaradılmışdır?
2. İlk Azərbaycan balerinası haqqında danışın.
3. Azərbaycanın ilk rəqs ansamblı nə vaxt təşkil olunub?
4. Məşhur azərbaycanlı rəqqasların adlarını sadalayın.

## İKİNCİ YARIMİL

*1-ci dərs.* **Proqramlı musiqi.**

Musiqi hiss və emosiyaları dərindən ifadə edə bilsə də, şəkil çəkməyi və hekayələr danışmağı bacarmır. Lakin buna baxmayaraq bir sıra musiqi əsərləri nağıllar, rəsm əsərlərini təsvir etmiş olur. Musiqi vasitəsilə nəyinsə "təsvirini" yaratmaq və ya hər hansı bir süjet xəttini açıqlamaq üçün bəstəkarlar çox zaman əsər üçün sözlərdən istifadə edir və ya adlandırır, məsələn, "Səhər".

Bütün musiqi əsərlərinə verilən adlar və sözlərlə izahlar proqram adlanır. Müəyyən bir məzmun daşıyan musiqi isə proqramlı musiqi adlanır.

Vokal əsərlərdə – mahnılar, romanslarda, vokal silsilələrdə və həmçinin musiqili teatr janrlarında – həmişə mətn və aydın bir proqram mövcuddur. Bəs əgər musiqi instrumentaldır və mətn yoxdursa, onu necə başa düşmək və ifa etmək lazımdır? Bununla bağlı bəstəkarlar, musiqidə hansısa obraz, hadisə və ya süjeti təsvir etmək üçün instrumental əsərlərinə müəyyən proqram başlıqları əlavə edirlər.

Azərbaycan bəstəkarlarının instrumental əsərləri arasında çoxsaylı proqramlı musiqi nümunələri mövcuddur. Bunlardan biri Asəf Zeynallının "Uşaq süitası"dır. Bu əsər, Azərbaycanda uşaqlar üçün yazılmış ilk musiqi nümunələrindən biridir. Asəf Zeynallı bu süitada (süita-fransızca ardıcıl və ya sıralanma mənasını verir) tanınmış klassiklərin, məsələn, Pyotr İliç Çaykovskinin "Uşaq albomu", Robert Şumanın "Gənclik albomu" kimi əsərlərinin ənənələrini davam etdirmişdir. Şübhəsiz ki, həmin məcmuə Azərbaycan fortepiano miniatürünün başlanğıcını qoymuş, bu janr daha sonra Qara Qarayev, Fikrət Əmirov, Tofiq Quliyev, Elmira Nəzirova və digər bəstəkarların yaradıcılığında inkişaf etmişdir.

**"Uşaq süitası"** silsiləsi Asəf Zeynallı tərəfindən yazılmış kiçik pyeslər məcmuəsidir və burada müxtəlif hərəkət və oyunlar vasitəsilə uşaqların öz dünyası əks olunur. Suita, xarakterləri müxtəlif olan altı kiçik pyesdən ibarətdir:

1. Kuklaların yürüşü
2. Uşaq və buz
3. Rəqs
4. Oyun
5. Qoyunlar
6. Deyişmə

Silsilə "Kuklaların yürüşü" pyesi ilə başlayır, burada musiqi enerjili marş xarakteri daşıyır.

***«Kuklaların yürüşü»:***

**https://www.youtube.com/watch?v=2t7GBj4IIKg**




İkinci pyes "Uşaq və buz" lirik xalq mahnısının işləməsidir.

***«Uşaq və buz»:***

[https://www.youtube.com/watch?v=4f433r5U7Cs](https://www.youtube.com/watch?v=4f433r5U7Cs) (səslənmənin başlanğıcı – 00:45)




Dinamik və oynaq üçüncü **“Rəqs”** pyesi xalq rəqslərini xatırladır.

***“Rəqs”:***

[https://www.youtube.com/watch?v=4f433r5U7Cs](https://www.youtube.com/watch?v=4f433r5U7Cs) (səslənmənin başlanğıcı – 01:31)




Dördüncü “Oyun” pyesində aşıq intonasiyaları var.

***“Oyun”:***

[https://www.youtube.com/watch?v=4f433r5U7Cs](https://www.youtube.com/watch?v=4f433r5U7Cs) (səslənmənin başlanğıcı – 02:33)




Silsilənin beşinci “Qoyunlar” pyesi daha bir xalq mahnısının işləməsidir. Pyes lirik və oxunaqlı səsələnir.

*“Qoyunlar”:*

[https://www.youtube.com/watch?v=4f433r5U7Cs](https://www.youtube.com/watch?v=4f433r5U7Cs) (səslənmənin başlanğıcı – 03:24)




Altıncı pyes **“Deyişmə”** – həyəcanın əks olunduğu yeganə pyesdir. Bu əsər özünəməxsus bir skertso (“zarafat”) xarakterlidir – sürətli, uşaq kimi inadkar, gümrah və şən ritmlidir.

*“Deyişmə”:*

[https://www.youtube.com/watch?v=4f433r5U7Cs](https://www.youtube.com/watch?v=4f433r5U7Cs) (səslənmənin başlanğıcı – 04:20)




***Sual və tapşırıqlar:***

1. Proqramlı musiqi nə deməkdir?
2. A.Zeynallının “Uşaq süitası”na neçə pyes daxildir? Pyeslərin adlarını sadalayın.
3. “Uşaq süitası” məcmuəsindən hansı pyeslər xalq mahnı işləmələridir?

*2-ci dərs.* **Proqramlı musiqi (davamı).**

Fikrət Əmirov “12 miniatür” silsiləsində görkəmli klassik bəstəkarların proqramlı musiqi ənənələrini davam etdirir.

Miniatür, kiçik formada olan incəsənət əsəridir. Bu janr həm musiqidə, həm də rəssamlıq sənətində istifadə olunur.

F.Əmirovun “12 Miniatür”  silsiləsində hər pyesin öz adı var – “Barkarola”, “Lirik rəqs”, “Marş”, “Aşıqsayağı” və s.

Silsilə nağılvari və hekayə xarakterli “Ballada” ilə açılır. Bu pyesin melodiyası yavaş və təmkinlidir.

***"Ballada":***

**https://www.youtube.com/watch?v=0iGzDEo0aFk**




Hər bir pyesdə özünəməxsus faktura növü (musiqinin ifadə üsulu) istifadə olunmuşdur, həmçinin xalq musiqisinin intonasiyaları və janrları da burada yer alır.

Silsilənin ikinci pyesi *"*Aşıqsayağı*"* birinci pyesdən tamamilə fərqlənir. Bu pyes kəskin, vurğulu səslənir və sanki simli-mizrablı xalq musiqi aləti olan sazın ifa tərzini xatırladır. Bu alətə xas olan kvarta və sekunda intonasiyaları buna nümunədir.

***"Aşıqsayağı":***

**https://www.youtube.com/watch?v=pOrZtwh9vUk** (səslənmənin başlanğıcı – 01:16)




"Barkarola" – italiyan sözü olub, "qayıqçının mahnısı" kimi tərcümə edilir. Bu əsər lirik xarakter daşıyır və 6/8 ölçüsündə yazılmışdır. Əsəri dinlədikcə, göz önündə axşam saatlarında qayıqda üzən və həzin, lirik mahnı oxuyan balıqçının obrazı canlanır.

***"Barkarola":***

**https://www.youtube.com/watch?v=pOrZtwh9vUk** (səslənmənin başlanğıcı – 10:10)



“Laylay” – silsilənin ən incə, lirik pyeslərindəndir. Sakit, yuxu gətirən bir həzinliklə səslənir.

***“Laylay”:***

**https://www.youtube.com/watch?v=pOrZtwh9vUk** (səslənmənin başlanğıcı – 07:14)




1980-ci illərin əvvəllərində Tofiq Quliyev “Cəmilənin albomu” adlı 12 uşaq pyesindən ibarət silsilə yazmışdır. Bəstəkar bu əsəri öz nəvəsinə həsr etmişdir. Bu miniatürlər obraz və emosional məzmun baxımından müxtəlifdir. “Kədərli” (“Tutqun hava”), “Laylay”, “Lirik vals” kimi pyeslər lirik əhval-ruhiyyəni təcəssüm edir. Sürətli rəqs ritmləri “Ləzginka” (Qaytağı rəqsi), “Rəqs”, “Marş” pyeslərində öz əksini tapmışdır. Janr təsvirləri “Seva velosipeddə”, “Motor”, “Göl kənarında”, “İpatdı”, “Gəzinti” kimi pyeslərdə təqdim edilir. “Nağıl” pyesi isə fantastik ruhda yazılmışdır.

Silsilə “Seva velosipeddə” pyesi ilə başlayır. Hərəkətli, fəal və yuxarıya doğru yönəlmiş melodiya uşağın velosiped sürməsi zamanı sürətli hərəkətini aydın təsvir edir. Melodiya do mayeli Rast məqamında səslənir.

***“Seva velosipeddə”:***

**https://www.youtube.com/watch?v=iM2Jy13oIPY**




“Kədərli” (№ 2) pyesinin musiqisi uşaq kədəri əhvalını ifadə edir. Mahnıvari, ifadəli melodiya re mayəli Bayatı-Şiraz məqamının elementləri ilə səslənir.

***“Kədərli”:***

[https://www.youtube.com/watch?v=iM2Jy13oIPY&t=3s](https://www.youtube.com/watch?v=iM2Jy13oIPY&t=3s) (səslənmənin başlanğıcı – 00:53)




Silsilənin lirik xətti “Laylay” (№ 4) pyesində davam edilir. Əsərin əsasını si mayəli Şüştər məqamına əsaslanan sakit, həzin və kədərli melodiya təşkil edir.

***“Laylay”:***

[https://www.youtube.com/watch?v=iM2Jy13oIPY&t=3s](https://www.youtube.com/watch?v=iM2Jy13oIPY&t=3s) (səslənmənin başlanğıcı – 03:20)




Nömrələr arasında “Lirik vals” (№ 6) öz parlaq, lirik əhval-ruhiyyəsi ilə fərqlənir. Valsın ritmi, onun fırlanan hərəkəti – uçan, yüngül hissiyat yaradır.

***“Lirik vals”:***

[https://www.youtube.com/watch?v=iM2Jy13oIPY&t=3s](https://www.youtube.com/watch?v=iM2Jy13oIPY&t=3s) (səslənmənin başlanğıcı – 05:37)




“Göl kənarında” (№ 8) pyesi mənzərəli lövhədir. Musiqidə su səthində günəş şüalarının oyunu təsvir edilir, suyun şırıltısı, yarpaqların xışıltısı eşidilir.

***“Göl kənarında”:***
[**https://www.youtube.com/watch?v=iM2Jy13oIPY&t=3s**](https://www.youtube.com/watch?v=iM2Jy13oIPY&t=3s) (səslənmənin başlanğıcı – 08:59)




“Gəzinti” (№ 10) pyesi həyatsevər, nikbin əhval-ruhiyyə ilə fərqlənir. Bayati-Şiraz məqamında canlı, gümrah və enerjili səslənir.

***“Gəzinti”:***
[**https://www.youtube.com/watch?v=iM2Jy13oIPY&t=3s**](https://www.youtube.com/watch?v=iM2Jy13oIPY&t=3s) (səslənmənin başlanğıcı – 11:59)




Uşaq mövzusu digər Azərbaycan bəstəkarı Zakir Bağırovun fortepiano əsərlərində, xüsusilə onun “Kukla tamaşası” adlı silsiləsində də öz əksini tapır. Bu silsilə yeddi müxtəlif xarakterli pyesdən ibarətdir. Bu fortepiano miniatürlərində uşaq şıltaqlıqları və təəssüratlarından bəhs olunur. Hər pyes öz sadə, aydın musiqi dili ilə fərqlənir. Bu əsərlərdə Azərbaycan xalq musiqisi ilə sıx əlaqə aydın hiss olunur. Bütün bu amillər onların orijinallığından xəbər verir.

Digər musiqi məcmuələrindən fərqli olaraq, “Kukla tamaşası” silsiləsində müxtəlif xarakterli pyeslər bir süjet xətti ilə birləşir: sanki gənc tamaşaçılar böyük teatr salonuna daxil olaraq dərhal sehrli möcüzələr dünyasına qərq olurlar. Pyeslər bir-birinin ardınca səslənərək hər biri müəyyən bir obraz yaratmış olur.

Uvertüranın giriş mövzusu rəqs xarakteri daşıyır, sanki hamını kuklaların nümayişinə dəvət edir.

***Uvertüra:***
**[https://www.youtube.com/watch?v=G1Vxm2AjIvg](https://www.youtube.com/watch?v=G1Vxm2AjIvg)**




İlk olaraq səhnəyə cəsur atlılar çıxır. Bu kuklalar zarafatlı milli oyunları nümayiş etdirirlər. Sonra balerina görünür. Bu da məzəli bir musiqi portretidir.

***"Balerinanın rəqsi":***




«Laylay» (№ 4) gəlinciyini yatızdıran kiçik bir qızın obrazını əks etdirir. Əsərin melodiyası sakit və lirikdir.

***«Laylay»:***




"Yelpiklə rəqs" (№ 5) – çin qızlarının portretidir. Rəqs parlaq, təntənəli şəkildə səslənir.

*“Yelpiklə rəqs”:*




Növbəti altıncı pyes “Fakir” (sehrbaz) adlanır. Burada, sanki əsas qəhrəman Fakir bütün obrazları (kuklaları) canlandırır və uşaqlar onu görürlər.

***«Fakir»:***

**https://www.youtube.com/watch?v=2g99agLPZOE**




Şərq sehrbazı öz sonsuz möcüzələrini davam etdirir. Bu əsərdə onun cazibədar, heyranedici sehrbazlıq bacarıqları göstərilir. Əsərin sonunda sehrbaz uşaqları nağıl dünyasından gerçək dünyaya qaytarır.

***Suallar:***

1. “Miniatür” nədir?
2. F.Əmirovun “12 miniatür” məcmuəsinə hansı pyeslər daxildir?
3. T.Quliyev «Cəmilənin albomu» adlı fortepiano pyesləri silsiləsi kimə həsr edib?
4. Z.Bağırovun «Kukla tamaşası» silsiləsində nədən bəhs olunur və buraya neçə pyes daxildir?

*3-cü dərs.* **Proqramlı musiqi (davamı).**

XX əsrin 70-ci illərində bəstəkar Ramiz Mirşli fortepiano üçün «Altı miniatür» adlı məcmuə yaratdı və bu əsəri nəvələrinə həsr etdi. Məcmuə xarakter və janr baxımından fərqli olan altı pyesdən ibarətdir: «Səhər», «Zarafat», «Rəqs», «Məsxərə», «Qaçdı-tutdu», «Marş».

Bu əsərlərin adları artıq öz obrazlı və emosional məzmunu ilə fərqlənir və bizə uşaqlıq dövrünü xatırladır, qayğısız uşaq dünyasının təsvirini yaradır.

«Səhər» (№ 1) öz ənənəvi funksiyasını yerinə yetirərək giriş rolunu oynayır. Pyes kiçik həcmi və parlaq xarakteri ilə seçilir. Musiqi, sanki sübh şəfəqinin doğuşunu və təbiətin oyanmasını təsvir edir. Əsər tələsmədən və sakit səslənir.

*«Səhər»:*




«Zarafat» (№ 2) pyesində geniş sıçrayışlar coşğun rəqs atmosferini, şən gülüşləri, rəqs tamaşası obrazını yaradır.

*«Zarafat»:*




«Rəqs» (№ 3) böyük ölçüsü (miqyaslı) və fakturanın mürəkkəbliyi ilə fərqlənir. Sekundalı intonasiyalar pyesə tokkata səslənişi (tokkata – sürətli, dəqiq hərəkətli və bərabər qısa ölçülü notlarla ifa olunan instrumental əsər) vermiş olur.

*«Rəqs»:*




«Məsxərə» (№ 4) digər pyeslərdən daha dərin emosional məzmunu ilə fərqlənir. Orta tempdə (*Moderato*) ifa olunur. Əsərin proqramlı adı onun xarakterini müəyyənləşdirir. Maraqlı, zarafatyana «tikanlı» motivlər bu əsərin xarakterik obrazını ifadə edir.

***«Məsxərə»:***




«Qaçdı-tutdu» (№ 5) sürətli tempdə ifa olunur və özünün fəal, coşqun xarakteri ilə seçilir.

***«Qaçdı-tutdu»:***

**https://www.youtube.com/watch?v=PcZwfotJXYQ**

Məcmuə "Marş" ilə bitir. Bu musiqi janrı teatral elementlərlə zəngindir. Fanfar səsləri truba siqnallarını xatırladır. Bu, musiqiyə təntənəli xarakter bəxş edir.

***«Marş»:***

**https://www.youtube.com/watch?v=gUHGTsCyFyM**




Bəstəkar Oqtay Zülfüqarov müxtəlif janrlarda əsərlər yazmış, amma onun yaradıcılığının əsas hissəsi uşaqlar üçün nəzərdə tutulub. Bəstəkar uşaqlar üçün yazılmış ilk mahnı məcmuələrinin müəllifidir.

Təqdim olunan «Gənc pianoçu» fortepiano məcmuəsi 24 pyesdən ibarətdir və sadə musiqi dili, qeyri-adi və orijinal quruluşları ilə seçilir («Təbəssüm», «Elegiya», «Bağa köçürük», «Əminə yatır», «Birinci addımlar», «Ziya Afrikada», «Gəlinciyim xəstədir», «Narahat İsmayıl», «Leylanın telefonu» və s.).

«Əminə yatıb» pyesi sakit, incə melodiyası ilə diqqəti cəlb edir. 2 xanəli girişdən sonra kiçik qızın yuxusu, sanki nağılların sehrli və sirli aləmini əks etdirərək, axıcı və ifadəli mövzu ilə təqdim olunur.

*«Əminə yatıb»:*




Qeyd etmək lazımdır ki, bəstəkarın uşaqlar üçün yazdığı bəzi fortepiano pyeslərinin mövzu və intonasiyaları onun uşaq mahnılarının mövzu və intonasiyaları ilə çox oxşardır. Məsələn, «Leylanın telefonu» pyesi, bəstəkarın «Telefon» mahnısını xatırladır. Burada kiçik bir qızın ilk dəfə telefonla danışarkən yaşadığı sevinc hissləri ifadə olunur. O, bu sevincini bütün dostları ilə bölüşmək istəyir. Musiqidə bu həyəcanlı hisslər aydın şəkildə öz əksini tapır.

*«Leylanın telefonu»:*




«Kukla xəstədir» pyesində bədii süjet ondan ibarətdir ki, uşaqlar kuklalarla oynayır, onlarla gəzir, həmçinin onları yatırdır, qidalandırırlar və kuklalar xəstələnə də bilər – yəni, həyatlarında gördükləri uşaqlara məlum olan hər şey kuklalara da aid ola bilər. Əsərdə kuklası xəstələnən qızın həqiqi əzabları və kədəri əks olunur. Bəstəkar musiqi dili vasitəsilə uşağın yaşadığı qüssənin dərinliyini çatdırmaq istəyir. Əsərin xarakteri kədərli, ağrılıdır və uşağın kədərli ah-naləsi və hıçqırıqlarını imitasiya edir.

*«Kukla xəstədir»:*




«Ziya Afrikada» pyesində kiçik qəhrəmanın böyük sərgüzəştləri təsvir edilir. O, dünyanı kəşf etmək istəyir. Dörd xanəli girişdən sonra bu ekzotik ölkəyə ilk addımların atılması barədə təəssürat yaranır. Canlı, işıqlı, hərəkətli mövzu səslənir.

*«Ziya Afrikada»:*




***Sual və tapşırıqlar:***

1. R.Mirişlinin «Altı miniatür» məcmuəsinə hansı pyeslər daxildir?
2. O.Zülfüqarovun «Gənc pianoçu» fortepiano məcmuəsinə neçə pyes daxildir? Onlardan bəzilərini sadalayın.
3. O.Zülfüqarovun «Gənc pianoçu» məcmuəsindən «Kukla xəstədir» pyesində nədən danışılır?

*4-cü dərs.* **Azərbaycanda musiqili teatrın yaranması.**

Azərbaycan teatrının yaranma tarixi 1873-cü ilə təsadüf edir. Həmin ildə Bakı Real Gimnaziyasının şagirdlərinin səyi nəticəsində, Nəcəf bəy Vəzirovun təşəbbüsü və Həsən bəy Zərdabinin rəhbərliyi ilə Mirzə Fətəli Axundovun «Lənkəran xanlığının vəziri» və «Hacı Qara» komediyaları səhnəyə qoyulmuşdur.

Dramatik teatr ilə yanaşı, Azərbaycanda musiqili səhnə əsərlərinin yaranmasında ictimaiyyət üçün təşkil edilən Şərq musiqisi konsertləri də əhəmiyyətli rol oynamışdır. Bu konsertlər XIX əsrin ikinci yarısından etibarən geniş yayılmağa başlamış və Bakı, Şuşa, Quba və digər şəhərlərdə keçirilmişdir. Belə klassik Şərq poeziyasından alınmış sevgi və lirika məzmunlu musiqili-səhnə tamaşaları xüsusi geyimlərdə nümayiş etdirilirdi. Musiqi materialının əsasını xalq mahnıları, rəqslər, aşıq musiqisi və muğamlar təşkil edirdi.

1897-ci ildə Şuşada yerli həvəskarlar, dramaturq Əbdürrəhim bəy Haqverdiyevin rəhbərliyi altında XVI əsrin görkəmli Azərbaycan şairi Məhəmməd Füzulinin «Leyli və Məcnun» poemasının faciəvi finalını əks etdirən «canlı mənzərə»ni tamaşaya hazırlamışdır. Tamaşa «Məcnun Leylinin məzarında» adı ilə səhnəyə qoyulmuşdur. Məcnun rolunu məşhur xalq müğənnisi Cəbbar Qaryağdı ifa etmişdir. Gənc Üzeyir Hacıbəyli xorda iştirak etmiş və tamaşadan təsirlənərək, 1908-ci ildə təkcə Azərbaycanda deyil, bütün Şərqdə ilk muğam operası olan «Leyli və Məcnun»u yaratmışdır. Məhz bu gündən etibarən Azərbaycanda peşəkar musiqili teatrının tarixi başlanır. İlk opera və musiqili komediyaların nümunələrini məhz Üzeyir bəy yaratmışdır. Onun «Şeyx Sənan», «Rüstəm və Zöhrab» və s. operaları, «Ər və arvad», «O olmasın, bu olsun», «Arşın mal alan» kimi musiqili komediyaları bunun bariz nümunəsidir.

Həmin dövrdə həmçinin dram tamaşalarına musiqi yazılırdı. XX əsrin əvvəllərində görkəmli Azərbaycan dramaturqu Cəfər Cabbarlı hər zaman yeni əsər üzərində işə başlamazdan əvvəl obrazlarından birinin mahnısını düşünürdü. Bəzən xalq mahnılarına müraciət edirdi, bəzən isə həm sözləri, həm də musiqisi özünə aid olan yeni mahnı yazırdı. Beləliklə, «1905-ci il» əsəri

üçün Sonanın «Azad bir quşdum» mahnısı bəstələnir. Sonra müəllif bu mahnını Əfrasiyab Bədəlibəyliyə oxumuş və ondan melodiyanı nota köçürməsini xahiş etmişdir. Həmçinin bu mahnı əsasında Zakir Bağırov tərəfindən bir pyes bəstələnmiş və onun «12 miniatür» məcmuəsinə daxil edilmişdir. Mahnı Şüştər məqamında yazılmış, dərin, səmimi duyğularla dolu, ifadəlidir.

***Sonanın mahnısı «Azad bir quşdum»:***

https://www.youtube.com/watch?v=8Q-BefrpWzw (səslənmənin başlanğıcı 2:20)




XX əsrin görkəmli Azərbaycan bəstəkarı Fikrət Əmirov Hüseyn Cavidin «Şeyx Sənan» dramına musiqi bəstələmişdir. Bu tamaşadan «Kor ərəbin mahnısı» musiqi nümunəsi uzun illərdir ki, bizim ifaçıların repertuarını bəzəyir. İlk ifaçısı Məmmədəli Əliyev olmuşdur. Bu mahnı Kor Ərəbin həyatının əzab-əziyyət içində olan mənzərəsini mükəmməl şəkildə əks etdirir. Burada «Bayatı-kürd» muğamının intonasiya və motivlərindən istifadə edilmişdir. Mahnı kədərli, yalvarışlı səslənir.

***F.Əmirov. «Kor ərəbin mahnısı»:***

https://www.youtube.com/watch?v=s8gX-WK062E




Müasir Azərbaycan bəstəkarı Firudin Allahverdi bir neçə film və teatr tamaşasına musiqinin, eləcə də bir müziklın[13] müəllifidir. Bəstəkar, 2007-ci ildə əvvəlcə Bakı Kamera Teatrında daha sonra isə Gənc Tamaşaçılar Teatrının səhnəsində təqdim olunan C.Cabbarlının «Aydın» tamaşasına musiqi bəstələmişdir.

Bu əsərdən olan «Restoran tanqosu[14]» adlanan musiqi parçası simli kvintet və fortepiano üçün nəzərdə tutulmuşdur. Həmin musiqi nömrəsi tamaşanın psixoloji-emosional vəziyyətini açmaq məqsədini güdür və Dövlət-bəy obrazının xarakterini, addımlarını və hisslərini musiqi ilə təqdim edir. Musiqi parçası parlaq ritmi və kəskin səslənməsi ilə fərqlənir.

---

[13] Müzikl – musiqili-teatral səhnə janrı olub, özündə nəinki musiqi, dram, həmçinin opera sənətini birləşdirir.

[14] Tanqo – sərbəst kompozisiyalı cütlük rəqsi olub, 1880-ci illərdə Cənubi Amerika qitəsində, Uruqvayda və Argentinada yaranmışdır.

***F.Allahverdi. «Restoran tanqosu»:***

**https://youtu.be/KyLpO8RZtIM**




***Sual və tapşırıqlar:***

1. Azərbaycan teatrının yaranma tarixi.
2. Üzeyir Hacıbəyli «Leyli və Məcnun» operasının yaranmasında səbəb nə olmuşdur?
3. C.Cabbarlının «1905-ci il» pyesindən «Azad bir quşdum» mahnısının xarakterini və hansı məqamda yazıldığını söyləyin.
4. H.Cavidin «Şeyx Sənan» dramından «Kor ərəbin mahnısı»nın ilk ifaçısı kimdir?
5. F.Allahverdinin «Restoran tanqosu» musiqi parçası hansı hissləri əks etdirir?

*5 – 6-cı dərslər.* **Azərbaycanda balet janrının yaranma tarixi.**

Azərbaycan milli xoreoqrafiyasının mənşəyi çox qədim dövrlərə təsadüf edir. Xalq rəqsləri bayramlar və mərasimlər, kütləvi oyunlar, tamaşaları müşayiət edirdi.

Orta əsrlərdə Azərbaycanın xoreoqrafiya sənəti musiqi və xor müşayiəti ilə zənginləşib. XIX əsrin əvvəllərində Azərbaycan milli xoreoqrafiyasının Qafqaz xalqların rəqs sənəti, Avropa və həmçinin rus klassik rəqsi ilə əlaqəsi genişlənib.

Peşəkar milli balet sənətinin yaranması XX əsrin əvvəllərində meydana gələn Azərbaycan operası ilə bağlıdır. 1920-ci ildə Bakıda səhnləşdirilən Üzeyir Hacıbəylinin musiqisi əsasında hazırlanan “Azərbaycan”, “Dağıstan” kimi xoreoqrafik miniatürlər və Müslüm Maqomayevin tamamlanmamış “Dəli Muxtar” baleti maraq doğurur.

1923-cü ildə Bakıda bir studiya təşkil olundu, 1933-cü ildə bu studiyanın əsasında balet məktəbi, sonra isə xoreoqrafiya məktəbi yaradıldı. XXI əsrdə həmin müəssisə Azərbaycan Xoreoqrafiya Akademiyasına çevrildi.

İlk Azərbaycan milli baleti olan “Qız qalası” (1940) Əfrasiyab Bədəlbəyliyə aiddir. Balet qədim milli əfsanəyə əsaslanır. “Qız qalası” haqqında olan əfsanələrdən biri zalım Cahangir xanın kasıb qız Gülyanağa olan sevgisindən bəhs edir. Cahangir xan Gülyanağı nişanlısından ayırır və evlənmə təklif edir. Qız sevgilisini qorumaq üçün razılıq verir, lakin bu şərtlə ki, xan ona dənizin içərisində qala tikdirsin. Toy günü ümidini itirən Gülyanaq özünü dənizə atır.

Baletin quruluşçuları və baş rolu ifa edən ilk Azərbaycan balerinası Qəmər Almaszadə klassik və Azərbaycan rəqs üslublarını birləşdirərək maraqlı sənət əsəri yaratmağa nail oldular.

Baletin girişində zalım və güclü Cahangir xanın obrazı təsvir edilir. Bu mövzu Çahargah məqamında hökmlü və sərt səslənir.

***Ə.Bədəlbəyli. «Qız qalası». Giriş:***

**https://www.youtube.com/watch?v=ln76Rx77M6M**




Milli incəsənətin formalaşmasında Qara Qarayevin Nizami Gəncəvinin poeması əsasında bəstələdiyi "Yeddi gözəl" (1952) baletinin böyük rolu olub. Bu balet xalqın torpaq sahiblərinə (feodallara) qarşı mübarizəsindən, sadə kəndli qızı Ayşənin və Bəhram şahın sevgisindən bəhs edir.

Baletdə Ayşənin variasiyası[15] incə, səmimi qız obrazını canlandırır. Melodiya yumşaq və oynaq səslənir.

***Q.Qarayev. «Yeddi gözəl». Ayşənin variasiyası:***




"Yeddi gözəl" baletindən Vals Bəhram şah və yeddi gözəlin səhnəsini təsvir edir. Bu nömrə Çahargah məqamında təntənəli və şən səslənir.

***Vals:***

**https://www.youtube.com/watch?v=vuuvB7VRpQs**




"Yeddi gözəl" baletindən sonra Q.Qarayev Leninqrad (indiki Sankt-Peterburq) Akademik Opera və Balet Teatrının sifarişi ilə "İldırımlı yollarla" (1958, afrika yazıçısı Piter Abrahamsın

[15] Baletdə variasiya – qısa virtuoz solo rəqsdir.

romanı əsasında) baleti üzərində işləməyə başlayır. Bu balet Cənubi Afrika xalqlarının irqi[16] problemlərinə və qaradərili gəncin ağdərili qıza olan faciəvi sevgisinə həsr olunub.

Ehtiraslı qızın (xidmətçi) rəqsi baletin parlaq nömrələrindən biridir. Bir nəfəsə səslənən, coşqun, emosional və həyəcanlı melodiya sanki anidən sükutə qərq olur.

***Q.Qarayev. "İldırımlı yollarla". Ehtiraslı qızın rəqsi:***
**https://www.youtube.com/watch?v=jl-owo1bi4k**




Türk şairi və dramaturqu Nazım Hikmətin librettosu əsasında yazılan Arif Məlikovun "Məhəbbət əfsanəsi" baleti (1961) müasir xoreoqrafiyaya böyük töhfə vermişdir. Bu qədim Şərq əfsanəsində Farhad və Şirinin faciəvi sevgindən bəhs edilir.

Türk qızlarının rəqsi baletin ən məşhur nömrələrindən biridir. Emosional, ehtiraslı və eyni zamanda lirik rəqs parlaq melodikliyi və qeyri-adi ritmik quruluşu ilə nəzəri cəlb edir.

***A.Məlikov. «Məhəbbət əfsanəsi». Türk qızlarının rəqsi:***
**https://www.youtube.com/watch?v=Ji9B4lnp8LQ**




1968-ci ildə bəstəkar Tofiq Bakıxanov da balet janrına müraciət edərək "Xəzər baladası"nı yazmışdır. Baletdə qarşıya qoyulmuş məqsəd neft mədənlərində neftçilərin bədbəxt hadisələrlə rastlaşması və bununla mübarizə aparmasıdır. Mübarizənin nəticəsində dənizi fəth etmək, alovu və bütün çətinlikləri məğlub etmək qabiliyyətinə malik insanın (neftçinin) mövzusu qalib gəlir. Buruq quyusundan neft fontanı püskürür. Bu mövzu baletdə inadkar və artan həyəcanla səslənir.

---

[16] İrqçilik – insanları dərilərinin rənglərinə görə bölmək.

***T.Bakıxanov. «Xəzər balladası». Neft fontanı:***
[https://www.youtube.com/watch?v=PHpGsGWYeHE](https://www.youtube.com/watch?v=PHpGsGWYeHE) (səslənmənin başlanğıcı – 08:45)




XX əsrin 70-ci illərinin sonunda bəstəkar Fikrət Əmirov ərəb nağıllarından ilhamlanaraq eyniadlı "Min bir gecə" baletini yaradır. Burada gözəl Şəhrizadın sənətinin gücü haqqında danışılır. Bu sənət sayəsində qüdrətli şah Şahriyar həqiqi sevgi və sədaqətin olduğunu anlayır.

Baletin birinci pərdəsində Oxatanların rəqsi xüsusilə parlaq nömrələrdən biridir. Bu musiqi nümunəsinin lad-harmonik dili çox orijinaldır. Musiqi sürətlə, emosional həyəcanla səslənir və ov səhnəsini təsvir edir.

***F.Əmirov. «Min bir gecə». Oxatanların rəqsi:***
[https://www.youtube.com/watch?v=c3D79jjaW4k](https://www.youtube.com/watch?v=c3D79jjaW4k)



Bəstəkar Aqşin Əlizadə 1979-cu ildə İlya Selvinskinin "Çiynində qartal daşıyan" («Орла на плече носящий») faciəsi əsasında "Babək" baletini yaradır. Bu balet, düşmənlərin hücumlarına qarşı mübarizə aparan azadlıq qəhrəmanı kimi məşhurlaşmış Babəkin rəhbərliyi altında Azərbaycan xalqının qəhrəmani üsyanının tarixinə həsr olunub.

Baletin başlanğıcında səslənən prelüdün diatonik mövzusu, klarnetin səsləri altında, dinləyicini qədim dünyaya aparır. Mövzu yumşaq və sakit səslənir.

***A.Əlizadə. «Babək». Prelüdün mövzusu:***
**https://www.youtube.com/watch?v=7mOmxxE25ik**



